№ 20 (963) 18-24 may 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "BAKI-2017" İSLAMİADANIN TARİXİNƏ ƏN MÖHTƏŞƏM İDMAN BAYRAMI KİMİ YAZILACAQ



Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib.

Azərbaycan və onun paytaxtı Bakı səbirsizliklə gözlənilən anın – IV İslam Həmrəyliyi Oyunlarının açılışının həyəcan və sevincini yaşayıb. Stadionun VİP tribunasında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin və digər rəsmi şəxslər əyləşmişdilər.



Xatırladaq ki, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi barədə qərar 2013-cü ilin iyulunda İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında qəbul olunub. 2015-ci il sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması barədə Sərəncam imzalayıb. Ötən müddətdə Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Oyunlara geniş hazırlıq işləri görülüb. Bakının 16 idman arenasının hər biri yarışlara yüksək səviyyədə hazırlanıb və digər zəruri təşkilati tədbirlər həyata keçirilib. Tam əminliklə demək olar ki, "Bakı-2017" İslamiadanın tarixinə ən möhtəşəm idman bayramı kimi yazılacaq.

Son illər Azərbaycan ilk Avropa Oyunları, Dünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, "Formula 1" kimi beynəlxalq yarışlara uğurla ev sahibliyi edib. Odlar Yurdu dünyada artıq idman ölkəsi kimi tanınır. "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının uğurunu şərtləndirən digər amil məhz bu sahədə qazanılan zəngin təcrübədir.

Azərbaycanın ev sahibi olduğu İslam Həmrəyliyi Oyunlarında 54 ölkədən 3 mindən çox idmançı, 1000-dən çox komanda rəsmiləri və bir o qədər də texniki nümayəndə iştirak edir. Bu rəqəmlər özlüyündə bir rekorddur. Çünki bu vaxtadək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin qatılması heç vaxt müşahidə olunmayıb.

İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparacaqlar. Azərbaycanı bu Oyunlarda 425 atlet təmsil edir. Qaliblərə ümumilikdə 1600 medal təqdim ediləcək.

IV İslam Həmrəyliyi Oyunlarını 50-dən çox ölkədə 1 milyarddan çox tamaşaçının izləyəcəyi gözlənilir.

Oyunların proqramına daxil edilmiş 165 idman yarışı üçün 500 mindən çox bilet satışa çıxarılıb. Oyunların su səyahətinin, təntənəli açılış və bağlanış mərasimlərinin təşkilinə 31 ölkədən 5 mindən çox mütəxəssis cəlb olunub. Mərasimlərdə 8 ölkədə istehsal olunmuş səhnə avadanlığından istifadə ediləcək. "Bakı-2017"nin 24 beynəlxalq və 17 yerli səfiri, 8 yerli və 5 beynəlxalq sponsoru var. Rəsmi talismanlar - "İncə" və "Cəsur" Azərbaycanın milli sərvəti olan Qarabağ atlarının rəmzləridir.

IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan su səyahətinə aprelin 5-də Prezident İlham Əliyevin iştirakı ilə start verilib. Xəzərdən başlayan su səyahəti Azərbaycanın 15 regionunu əhatə etdi.

Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım və "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymini və digər qonaqları sürəkli alqışlarla salamladılar.

Beləliklə, 2017-ci il aprelin 5-də Bakıda Xəzərdən başlayan su səyahəti Olimpiya Stadionunda başa çatdı.

Xatırladaq ki, 40 gün əvvəl Xəzərdən götürülmüş su Oyunların ruhunu hamıya yaxın etmək üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən rəmzi olaraq ölkənin bütün guşələrinə göndərilmişdi. Bu müddətdə səyahətçilər 3000 kilometrdən artıq məsafə qət edib, 16 məkandakı 5 göldən, 1 su anbarından, 3 çaydan, 1 bulaqdan, 3 şəlalədən və Xəzər dənizinin ayrı-ayrı sahillərindən su götürərək Bakıya qayıdıblar. Həmin sular bu axşam Bakı Olimpiya Stadionunda qovuşdu.

Nəhayət, atletlərin paradı başladı. Hər bir komanda stadiona öz ölkəsinin bayrağı altında əlifba sırası ilə daxil oldu. İdmançıları əlində lövhə tutan oğlan və mis qabda su daşıyan qız müşayiət edirdi.

Stadiona İslam Həmrəyliyi İdman Federasiyasının bayrağının gətirilməsi mərasimi başladı. Bayrağı stadiona Azərbaycanın Olimpiya, dünya çempionları və mükafatçıları gətirdilər. Onların arasında Sidney, Barselona, Pekin, Afina Olimpiya oyunlarının çempionları Namiq Abdullayev, Nazim Hüseynov, Elnur Məmmədli, Fərid Mansurov, Zemfira Meftahətdinova və başqaları var idi.

Sonra "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış etdi. O, dedi:

- Əziz həmvətənlər, biz birliyin və idmanın təntənəsi olan IV İslam Həmrəyliyi Oyunlarını bu axşam fərəh hissi ilə qəbul edirik. Oyunlara ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Bu gün Azərbaycan bütün İslam aləmini qəbul edir. Dörd qitədən gəlmiş minlərlə idmançını və paytaxtımızın qonaqlarını səmimi qəlbdən salamlayır, onlara "Xoş gəlmisiniz" deyirəm! Bütün bu uğurlar münasibətilə gözəl Vətənimizin hər bir vətəndaşını təbrik edirəm və minnətdarlığımı bildirirəm. Qoy, Ulu Tanrı Azərbaycanı qorusun!

Əziz dostlar, 50-dən artıq ölkənin nümayəndəsi bu axşam Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimini qeyd edir. Sizin burada olmağınız bizim üçün şərəfdir. Qardaşlarımız və bacılarımız, Azərbaycan Sizi səmimiyyətlə salamlayır. Mən IV Oyunların keçirilməsini Bakıya həvalə etdiyinə görə İslam Həmrəyliyi İdman Federasiyasına minnətdarlığımı bildirmək istəyirəm.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunları Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifədir və beynəlxalq idman ictimaiyyəti üçün növbəti tarixi hadisədir. İdmana yatırdığımız böyük sərmayə dünya səviyyəsində bacarıqları mənimsəməklə, qurğuları və infrastrukturları yaratmaqla gələcək üçün böyük irsi təmin etdi.

Bu axşam biz İslam aləmini bir araya gətiririk. Azərbaycan bu ali missiyanı öz üzərinə götürməkdən fərəh hissi duyur. Biz minillikləri əhatə edən mədəniyyətə və güclü İslam ənənələrinə malik qədim diyarıq. Eyni zamanda, biz gənc, müasir və sürətlə inkişaf edən ölkəyik. Ötən il Azərbaycan müstəqilliyinin bərpa olunmasının 25-ci ildönümünü qeyd etdi. Ölkəmizin multikultural tarixi açıq, tolerant cəmiyyətimizin ən ülvi hissəsidir. Biz İslam tarixi və irsinin bir hissəsi olmaqdan, İslam dəyərlərini bölüşməkdən fərəhlənirik.

Bu Oyunların qələbə qazanacaq atletlərinin təltif olunacağı medallardan tutmuş möhtəşəm açılış və bağlanış mərasimləri kimi yaradıcı elementləri zəngin mədəniyyətimizi ilhamlandıracaq. Odlar Diyarı Azərbaycan həm də büllur sular ölkəsidir. Bənzərsiz göllərimiz və çaylarımız, şəlalələrimiz və bulaqlarımız, Xəzər dənizimiz əsrlər boyu həyatımızın mənbəyi olub. Ortaq İslam irsimizdə əsas yer tutan və həyat mənbəyi olan bu element Qafqaz dağlarından Xəzər dənizinə qədər ölkəmizin təbii gözəlliyinin və özünəməxsusluğunun mühüm hissəsini formalaşdırır. "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının rəmzi – su son beş həftə ərzində Xəzərdən başlayan böyük səyahətdə oldu. O, Azərbaycanın bənzərsiz təbiətini dünyaya nümayiş etdirdi, hər kəsə sülh və dostluq müjdəsi gətirərək, insanları ilhamlandırdı. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilib. "Bakı-2017" İslam Həmrəyliyi Oyunları və idmanın qüdrəti xalqlarımızı İslamın dostluq, sülh, tolerantlıq və mərhəmət ruhu altında bir araya gətirib. Gücümüz həmrəylikdədir! Bu ruhlandırıcı mesajı Oyunlarımız Azərbaycanın hüdudlarından çox uzaqlara göndərəcək. Sonra İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin çıxış etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarını açıq elan etdi.

IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi Bakı Olimpiya Stadionu və Dənizkənarı Bulvar üzərində möhtəşəm atəşfəşanlıqla bitdi. Bakının bahar səması əlvan rənglərə boyandı.

Beləliklə, Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bu mərasimlə IV İslam Həmrəyliyi Oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.





# Azərbaycan millisi yüksək nailiyyət əldə edərək 41 qızıl medal qazanıb

Azərbaycan milli komandası IV İslam Həmrəyliyi Oyunlarında uğurla çıxış edir. Oyunlara maraq çox böyükdür. Arenalarda yarışları yüzlərlə tamaşaçı izləyir. Milli komandamız yüksək nailiyyət əldə edərək 41 qızıl medal qazanıb.

Bu sözləri Azərbaycanın gənclər və idman naziri, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov mayın 17-də Oyunlarla bağlı keçirilən mətbuat konfransında deyib.

İslamiadanın beşinci günündə komandamızın artıq 81 medala sahib olduğunu bildirən Azad Rəhimov daha 27 ölkənin medal qazandığını diqqətə çatdırıb. Oyunlarda gərgin mübarizənin aparıldığını söyləyən gənclər və idman naziri atletlərə artıq 131 medal dəstinin təqdim edildiyini vurğulayaraq deyib: "Medal sıralamasında ilk iki yeri Türkiyə və Azərbaycan bölüşür. Müxtəlif idman növlərində yarışlar davam edir. Yeddi boksçumuz artıq yarımfinaldadır. Bu, əlavə 7 medal deməkdir. Voleybol üzrə kişilərdən ibarət yığma komandamız Türkmənistan ilə qarşılaşır. Taekvandoda 4 idmançı mübarizə aparacaq. Bu gündən yunan-Roma güləşi üzrə yarışlar başlayır və dörd idmançımız mübarizəyə qoşulub. Ağır atletikada isə iki idmançımız çıxış edir".

Yerli və əcnəbi tamaşaçıların möhtəşəm açılış mərasiminə heyran qaldıqlarını söyləyən Azad Rəhimov məhz bu mərasim ilə bağlı dünya mediasında çoxlu sayda məqalələrin yerləşdirildiyini vurğulayıb: "İtaliyanın, eləcə də digər ölkələrin mətbuatında açılış mərasimi ilə bağlı silsilə məqalələr dərc edilib. Açılış mərasimi, həqiqətən də, İslam mədəniyyətinin, elminin təntənəsi idi. Gözəl şou hər kəsi heyran etdi. Oyunların gedişi, yüksək ab-hava, zallarda olan gözəllik, idmançıların əhval-ruhiyyəsi daha böyük nailiyyətlər əldə edəcəyimizdən xəbər verir".

IV İslam Həmrəyliyi Oyunlarının qızıl medalçısı Anastasiya İbrahimli ölkəmizdə idmana göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Azərbaycan bayrağını doğma divarlar arasında qaldırmağın unudulmaz hiss olduğunu deyən A.İbrahimli bütün azarkeşlərə, idmansevərlərə təşəkkür edərək bildirib: "Tamaşaçıların dəstəyi mənə əlavə stimul verdi. Məşqçilərimə hədsiz minnətdaram. Biz çətinlikləri ram etdik. Digər mükafatçıları təbrik edir, qarşıdakı yarışlarda idmançılarımıza qızıl medallar arzulayıram. Oyunlarda çıxış etmək bizim üçün şərəfdir. Bu yarışlar mənim üçün çox əhəmiyyətli oldu. İslam Həmrəyliyi Oyunlarının qalibi olduğum üçün çox sevinirəm".

# ARDNF səhmlərə investisiyalarını artıracaq



Azərbaycan Dövlət Neft Fondu (ARDNF) səhm portfelinə investisiyaların məcmu dəyərinin maksimum 25%-ni ayıracaq. Bu, Prezident İlham Əliyevin mayın 12-də imzaladığı "ARDNF-nin vəsaitindən istifadənin əsas istiqamətləri və investisiya siyasəti" fərmanında qeyd olunub.

Xatırladaq ki, bundan əvvəlki fərmanda ARDNF məcmu vəsaitlərin maksimum 15%-ni səhm portfelinə yatıra bilərdi. Bununla yanaşı, fərmanda qeyd olunub ki, ARDNF-nin məcmu vəsaitinin maksimum 5%-ə qədəri səhmlərə investisiya edən pay fondlarına yatırıla bilər.

Fərmanda yer alan dəyişikliklərdən sonra ARDNF-nin borc öhdəlikləri və pul bazarı alətləri portfelinin idarə edilməsinin hədəf gəlirliliyi (bençmark) kimi Britaniya Bankirlər Assosiasiyası tərəfindən müvafiq valyuta (avro istisna olmaqla) üzrə dərc edilmiş 6 aylıq (əvvəlki 3 aylıq) LIBOR faiz dərəcəsi götürüləcək.

Neft Fondunun borc öhdəlikləri və pul bazarı alətləri portfelinin avroda ifadə olunan aktivlərinin idarə edilməsində hədəf gəlirliliyi (bençmark) kimi 6 aylıq (əvvəlki 3 aylıq) EURİBOR faiz dərəcəsi götürüləcək.

LIBOR dərəcəsi mövcud olmayan valyutalar üzrə hədəf gəlirliyi kimi maliyyə bazarında banklar arasında 6 aylıq kreditlər üzrə ən geniş yayılmış faiz dərəcələri istifadə edilə bilər.

# İxrac-idxal barədə müfəssəl məlumat açıqlandı

2017-ci ilin yanvar-mart aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 149 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 84 ölkəyə məhsul ixrac olunmuş, 143 ölkədən idxal olunmuşdur. Bu barədə Dövlət Statistika Komitəsinin yaydığı məlumatda deyilir.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2017-ci ilin yanvar-mart aylarında xarici ticarət dövriyyəsi 5090,9 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 3578,1 milyon dollar, idxalın dəyəri 1512,8 milyon dollar təşkil etmiş, nəticədə 2065,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2016-cı ilin yanvar-mart ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 10,6 faiz artmış, real ifadədə isə 16,4 faiz, o cümlədən ixrac 9,2 faiz, idxal 27,3 faiz azalmışdır.Ticarət dövriyyəsinin 39,1 faizi Avropa İttifaqı ölkələri, 11,8 faizi MDB üzvü dövlətləri, 49,1 faizi isə dünyanın digər ölkələrinin payına düşmüşdür.

İxracın dəyərinin 20,7 faizi İtaliyaya, 11,8 faizi Türkiyəyə, 6,9 faizi Portuqaliyaya, 6,5 faizi Tayvana (Çinin əyaləti), 5,7 faizi İsrailə, 4,8 faizi Çinə, hər biri 4,5 faiz olmaqla Almaniya və Hindistana, 4,1 faizi Gürcüstana, 3,8 faizi Fransaya, 3,6 faizi Kanadaya, qalan 23,1 faizi isə digər ölkələrə göndərilmiş məhsullar əsasında formalaşmışdır.

İdxal olunmuş məhsulların dəyərinin 19,7 faizi Rusiyanın, 16,1 faizi Türkiyənin, 9,8 faizi Çinin, hər biri 4,9 faiz olmaqla Almaniya və ABŞ-ın, 4,4 faizi Ukraynanın, 4,1 faizi İtaliyanın, 3,7 faizi Birləşmiş Krallığın, 3,2 faizi İranın, 2,1 faizi Braziliyanın, 1,9 faizi Hindistanın, 25,2 faizi isə digər ölkələrin payına düşmüşdür. 2017-ci ilin yanvar-mart aylarında 264,9 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2016-cı ilin yanvar-mart aylarına nisbətən faktiki qiymətlərlə 9,1 faiz, real ifadədə isə 7,0 faiz çoxdur.

2017-ci ilin yanvar-mart aylarında 2016-cı ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 58,4 faiz, təzə tərəvəz 95,0 faiz, tütün 35,4 faiz, çay 44,4 faiz, meyvə və tərəvəz şirələri 47,3 faiz, təbii üzüm şərabları və üzüm suslosu 16,3 faiz, meyvə və tərəvəz konservləri 27,6 faiz, kartof 33,5 faiz, polietilen 0,4 faiz, pambıq lifi 6,6 dəfə, bentonit gili 3,4 dəfə artmış, şəkər ixracı isə 3,5 faiz, bitki yağları 14,0 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar 43,8 faiz, emal olunmamış alüminium 29,0 faiz, qara metallardan borular 17,8 faiz, pambıq ipliyi 20,1 faiz, qara metallardan yarımfabrikatlar 93,1 faiz azalmışdır.

# Beynəlxalq Bankın sağlamlaşdırılması proqramı həyata keçiriləcək



***Xalid Əhədov: "Xarici öhdəliklərin restrukturizasiya prosesinin Azərbaycan Beynəlxalq Bankının müştərilərinə hər hansı şəkildə təsiri yoxdur".***

Ötən həftə ölkənin iqtisadi gündəmi üçün son dərəcə diqqətçəkən bir xəbər yayıldı. Regionun ən böyük bankı olan Azərbaycan Beynəlxalq Bankının xarici öhdəliklərinin könüllü restrukturizasiyasına başlanması elan olundu. Sadə dildə desək, bu dövlət bankının xarici borcları birbaşa dövlətə ötürüləcək və həmin borcları Azərbaycan dövləti ödəyəcək.

Belə bir addımda məqsəd nədir? Bu qərar nələrə təsir göstərə bilər? Suallarımıza Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədri Xalid Əhədov cavab verəcək:

**-Xalid müəllim, bu məsələ müxtəlif çevrələrdə hələ də müzakirə olunmaqdadır. Elə biz də söhbətə konkret sözdən başlamaq istərdik: niyə restrukturizasiya?**

- Azərbaycan Beynəlxalq Bankının xarici öhdəliklərinin restrukturizasiyası ölkənin maliyyə sektoru üçün çox önəmli proses olduğundan yerli və beynəlxalq mətbuatın məsələyə bu qədər diqqət ayırması anlaşılandır. Ən böyük bankların belə dəfələrlə tətbiq etdiyi restrukturizasiya nədir, əvvəlcə bunun mahiyyətini qısaca izah edim. Hər bir bankın var aktivləri, var aktivlərin mənbəyi olan öhdəlikləri və bir də var aktivlərlə öhdəliklər arasındakı fərqdən ibarət olan kapitalı. Əgər bankın kapital çatışmazlığı yaranırsa, ya aktivlərlə bağlı, ya öhdəliklərlə bağlı, yaxud eyni vaxtda bunların hər ikisi ilə bağlı nələrsə etmək lazımdır ki, kapital mövqeyi düzəlsin. Son illər Azərbaycan Beynəlxalq Bankında baş verənlər barədə cəmiyyət kifayət qədər məlumatlıdır. Bütün bunlar, eləcə də dünya bazarında neftin qiymətinin ucuzlaşması və bunun ölkəmizin makroiqtisadi vəziyyətinə ziyanlı təsirləri bankın maliyyə durumuna əhəmiyyətli şəkildə təsir göstərib. Nəticədə, bank 2016-cı ili zərərlə başa vurub. Ona görə də bankın xarici öhdəliklərinin restrukturizasiya edilməsi məsələsi gündəmə gəlib. Könüllü restrukturizasiya qərarı bu fəsadın aradan qaldırılmasına, Azərbaycan Beynəlxalq Bankının kapital mövqeyinin güclənməsinə hesablanmış bir qərardır.

Əgər Bankın sağlamlaşdırılması proqramı ilkin mərhələdə yalnız aktivlər tərəfində tədbirləri nəzərdə tuturdusa (söhbət 2015-2016-cı illərdə bankın 10 milyard manatlıq toksik aktivinin Aqrarkredit təşkilatına ötürülməsindən gedir) indi ikinci mərhələ olaraq öhdəliklər tərəfində də tədbirlər həyata keçirilir. Yəni, bankın xarici kreditorlar qarşısındakı öhdəlikləri bankın balansından çıxarılaraq dövlətin balansına keçirilir. Beləliklə, bir tərəfdən aktivlərlə bağlı tədbirlər, digər tərəfdən öhdəliklərlə bağlı tədbirlər Azərbaycan Beynəlxalq Bankının kapital səviyyəsinin bərpasını təmin edəcək.

Bu, dünyada bankların sağlamlaşdırılması zamanı tətbiq edilən üsullardan biridir. İki cür restrukturizasiya forması var: məcburi və könüllü. Məcburi restrukturizasiya, adından da göründüyü kimi, ödəmə qabiliyyətini tam itirmiş bankların tənzimləyici orqanın qərarı ilə məcburi şəkildə bu prosesə başlamasıdır.

Könüllü restrukturizasiya isə bankın kreditorları ilə qarşılıqlı razılıq əsasında həyata keçirilən və bankın güclənməsinə xidmət edən bir prosesdir. Son onillikdə, xüsusilə qlobal maliyyə böhranı zamanı ayrı-ayrı ölkələrin ABŞ-ın, Böyük Britaniyanın, İrlandiyanın və s. praktikasında bank öhdəliklərinin könüllü restrukturizasiyası effektiv nəticələr verib. Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2015-ci il tarixli Fərmanına əsasən sağlamlaşdırma prosesi keçən Azərbaycan Beynəlxalq Bankının da sağlamlaşdırılmasının növbəti mərhələsi kimi məhz bu təcrübədən istifadə olunacaq.

**-Yerli müştəriləriniz bu restrukturizasiya prosesindən nə gözləməlidirlər?**

-Xarici öhdəliklərin restrukturizasiya prosesinin Azərbaycan Beynəlxalq Bankının müştərilərinə, hüquqi və fiziki şəxslərin bankdakı vəsaitlərinə, onların bankla əlaqədar istənilən fəaliyyətinə hər hansı şəkildə təsiri yoxdur. Çünki xarici öhdəliklərin restrukturizasiyası prosesi onları əhatə etmir. Hətta deyərdim ki, bu, müştərilərimizin faydasına olan bir qərardır. Çünki bank xarici öhdəliklərdən azad olaraq daha bu öhdəliklərə xidmət etmir, bu öhdəlikləri dövlət ödəyir, bank isə güclənməyə, inkişafa, digər strateji məqsədlərinə fokuslanır. Nəticədə, müştərilərimizin bankı daha sağlam və güclü maliyyə institutuna çevrilir.

İlk gündən bütün kommunikasiyamızda bu mesajı verməyə çalışmışıq və mən çox şadam ki, bütün müştərilərimiz bunu anlayışla qarşıladılar. Bəzi KİV-də həqiqəti əks etdirməyən yazılar çıxsa da, müştərilərimiz Azərbaycan Beynəlxalq Bankına olan loyallıqlarını nümayiş etdirdilər.

**- Könüllü restrukturizasiya qərarı elan olunduqdan sonra beynəlxalq reytinq agentlikləri, konkret Fitch və Moody's Azərbaycan Beynəlxalq Bankının reytinqlərini aşağı saldı...**

- Beynəlxalq reytinq agentliklərinin açıqlamalarına Bankın verdiyi şərhdə də qeyd etdiyimiz kimi, bu, normal bir praktikadır və bizim üçün gözlənilən qərardır. Belə bir hal, xarici ölkələrdə eyni prosesi keçmiş maliyyə qurumlarının təcrübəsində də baş verir. Adətən, restrukturizasiya prosesi dövründə maliyyə qurumlarının reytinqləri qısa müddətdə aşağı düşür və proses başa çatdıqdan sonra reytinqlər yenidən bərpa olunur. Azərbaycan Beynəlxalq Bankının reytinqlərinin aşağı salınması da müvəqqəti xarakter daşıyır. Restrukturizasiya prosesi başa çatdıqdan sonra Azərbaycan Beynəlxalq Bankının reytinqlərinin yenidən yüksəldiyini görəcəyik. Reytinq agentlikləri özləri də hesabatlarında bunu qeyd ediblər.

**- Azərbaycan Beynəlxalq Bankının törəmə banklarının, "ABB-Moskva"nın və "ABB-Gürcüstan"ın da xarici öhdəlikləri restrukturizasiya ediləcəkmi?**

-Artıq qeyd etdiyim kimi, Azərbaycan Beynəlxalq Bankının fiziki və korporativ müştəriləri restrukturizasiya prosesinin tərkib hissəsi olmadığı kimi, bizim törəmə müəssisələrimizə də bu proses şamil olunmur. Azərbaycan Beynəlxalq Bankının törəmə banklarının öhdəliklərinin strukturunda xarici kreditorlar yoxdur. "ABB-Moskva"-nın və "ABB-Gürcüstan"ın 2016-cı il üzrə maliyyə nəticələri bu bankların saytında yerləşdirilib. Həmin nəticələrə nəzər yetirsəniz, görərsiniz ki, hər iki törəmə bankımızın maliyyə durumunun adekvatlığı onların fəaliyyət göstərdiyi Rusiya və Gürcüstanın Mərkəzi Banklarının müəyyən etdiyi normativ tələblərdən dəfələrlə yaxşıdır. Ona görə də bu bankların hər hansı xarici öhdəliklərinin restrukturizasiyasından söhbət gedə bilməz. Onlar fəaliyyətlərini normal qaydada davam etdirirlər.

**- Ötən həftəsonu Azərbaycan Beynəlxalq Bankı ilə bağlı bir sensasion məlumat da Bankın xarici öhdəliklərin restrukturizasiyası qərarı ilə bağlı Nyu-York məhkəməsinə müraciət etməsindən ibarət oldu. Bu sual bir çoxları üçün hələ də anlaşılmaz qalır: niyə başqa bir ölkə yox, məhz Amerika məhkəməsi?**

- "Niyə Amerika məhkəməsi" sualının iki cavabı var: birincisi, Azərbaycan Beynəlxalq Bankının heç də dünyanın bütün ölkələrində əhəmiyyətli aktivləri yoxdur, amma ABŞ-da müəyyən həcmdə aktivləri var. Bank xarici müxbir hesablarındakı vəsaitləri ABŞ dolları ilə saxlayır.

Yenə soruşa bilərsiniz, niyə başqa ölkələrin valyutaları ilə yox?! Məsələ burasındadır ki, dünyada aparılan mübadilə əməliyyatlarının 87 faizindən çoxu məhz ABŞ dolları ilə baş verir. Bu səbəbdən banklar xarici ölkələrdəki aktivlərini ABŞ dolları ilə saxlayırlar. Ona görə də Azərbaycan Beynəlxalq Bankı xarici öhdəliklərinin restrukturizasiyası prosesinin ABŞ-da tanınması və bu səbəbdən kreditorlar tərəfindən ABŞ məhkəmələri vasitəsilə onun aktivlərinə qarşı iddia qaldırılmasının qarşısının alınması məqsədilə Nyu-York məhkəməsinə müraciət etdi və bu müraciətimiz məhkəmə tərəfindən təmin olundu. Bu da bütün dünyada restrukturizasiya proqramının ayrılmaz hissəsidir.

"Niyə Amerika məhkəməsi?" sualının ikinci cavabı isə bundan ibarətdir ki, bizim restrukturizasiya predmeti olan xarici öhdəliklərimiz arasında ABŞ qanunvericiliyinə əsasən bağlanmış əqdlər də var. Ona görə bu ölkənin məhkəməsinə müraciət etmişik. Əslində, Nyu York məhkəməsinin qərarı bizim maraqlara cavab verir.

**- Restrukturizasiya qərarı elan olundu, fikirlər, rəylər açıqlandı, maraqlıdır, indi bundan sonra nə baş verəcək?**

- Restruktruzizasiya planı var, bu sənəd bankın saytında yerləşdirilib, ona uyğun addımlar atılacaq. Növbəti mərhələdə mayın 23-də Londonda xarici kreditorlarla görüş keçiriləcək. Qanuna uyğun olaraq müvafiq səs çoxluğu əsasında adekvat qərarlar qəbul ediləcək. Kreditorların hər hansı qərara səs verməsindən ötrü ən mühüm amil, təbii ki, tətbiq ediləcək planın ədalətli olmasıdır. Bu da qarşılıqlı danışıqlardan asılı olan məsələdir. Mayın 23-də xarici kreditorlarımızla müzakirələr aparacağıq və Azərbaycan dövlətinin bu vəsaitləri nə zaman, hansı şərtlərlə qaytarması barədə razılaşmalar əldə ediləcək.

**- Söhbət nə qədər kreditordan gedir?**

-Xarici öhdəliklərin könüllü restrukturizasiyası prosesi, ümumilikdə 37 əqdi əhatə edir.

**- Bu günlərdə mətbuatda Azərbaycan Beynəlxalq Bankının xarici kreditorlardan biri qarşısındakı 100 milyon dollarlıq öhdəliyini yerinə yetirməkdən imtina etməsi xəbəri yayıldı...**

- Bu da, qeyd etdiyimiz həmin 37 əqddən biridir. Bütün dünyada qəbul edilmiş işgüzar təcrübə var ki, restrukturizasiya qərarı elan olunduqdan sonra bank bir kreditor qarşısında öhdəliklərini yerinə yetirib, digərinin ödənişlərindən imtina edə bilməz. Bu zaman, o biri kreditorlarımızın maraqlarına xələl gətirmiş olarıq. Mayın 23-də keçirilən görüşdən sonra həmin kreditorumuz qarşısındakı öhdəliklərlə bağlı məsələ də müsbət həllini tapacaq.

**- Azərbaycan Beynəlxalq Bankının gələcək planları nədən ibarətdir?**

- Hazırda Bankın sağlamlaşdırılması prosesinin növbəti mərhələsinə paralel olaraq bir sıra strateji layihələr yerinə yetirilir. Bankın filiallarında biznes prosesləri optimallaşdırılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər fəaliyyətin çevikliyini, effektivliyini, ən əsası isə müştərilərimizə daha keyfiyyətli xidməti təmin edəcək.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında" 15 iyul 2015-ci il tarixli Fərmanına uyğun olaraq restrukturizasiya prosesi başa çatdıqdan sonra bankın özəlləşdirilməsinə hazırlıq başlanacaq. Özəlləşdirməyə hazırlıq kifayət qədər böyük bir layihədir və bu, bankın gələcəyə baxan aydın strategiyaya malik olmasını tələb edir. Çünki potensial investorlar bankın necə mənfəət qazanacağını bilmək istəyəcəklər. Restrukturizasiya bitdikdən sonra biz belə bir strategiyanı hazırlayıb bankın səhmdarlarına təqdim edəcəyik və strategiyanın təsdiqindən sonra dərhal onun icrasına başlanacaq.

Hazırda Bankın institusional inkişafı istiqamətində işlər gedir. Bir sıra strateji istiqamətlərdə komandaya yeni peşəkar üzvlər cəlb olunur. Bizim üçün xoşdur ki, elan etdiyimiz vakansiyalar böyük maraqla qarşılanır. Bank sektorunda kifayət qədər təcrübəsi olan bir çox peşəkarlar bizimlə birgə çalışaraq Azərbaycan Beynəlxalq Bankının uğur hekayəsinin bir hissəsi olmağa həvəs göstərirlər.

# Son 15 ildə regionlar üzrə vergi daxilolmaları 16 dəfə artıb



Regionların inkişafı ilə əlaqədar qəbul olunmuş sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olan dövlət proqramlarının qəbulu və uğurla həyata keçirilməsi bölgələrdə investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, biznes mühitinin daha da yaxşılaşdırılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Vergilər Nazirliyinin Ərazi vergi orqanları ilə iş üzrə departamentinin baş direktoru Elçin Bəylərovun qəzetimizə müsahibəsinin başlıca mövzusu regionların inkişafının vergi daxilolmalarına təsirinə həsr edilmişdir.

**- Elçin müəllim, son illər dövlət regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirir və bu sahədə böyük dəyişikliklər baş vermişdir. Bəs, bu dəyişikliklər regionlardan vergi daxilolmalarında özünü necə göstərir?**

- Regionların inkişaf etdirilməsi ilə bağlı 2004-cü ildən başlanılmış siyasətin davamı olaraq təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasına, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsinə, yeni müəssisələrin və iş yerlərinin yaranmasına, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinə səbəb olmuşdur. Dövlət proqramlarının uğurlu icrası nəticəsində bu il respublikanın 33 şəhər və rayonu öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan vergilərin hesabına formalaşdırmalıdır.

Regionların inkişafı ilə bağlı qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, regionlardan büdcə daxilolmalarının artmasına imkan vermişdir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, regionlardakı vergi ödəyicilərinin əksər hissəsinin fəaliyyəti kənd təsərrüfatı ilə əlaqədardır və 1999-cu ildən bu sahənin, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad olunmasına baxmayaraq, 2016-cı ildə vergi daxilolmaları 600,8 milyon manat təşkil etmişdir. Halbuki, Dövlət Proqramının qəbulundan əvvəlki 2003-cü ildə bu rəqəm 37,7 milyon manat idi. Beləliklə, son 15 ildə regionlardan vergi daxilolmaları 16 dəfə artmışdır. Burada, necə deyərlər, şərhə ehtiyac yoxdur.

**- Qeyd etdiniz ki, regionlardakı vergi ödəyicilərinin çoxu kənd təsərrüfatı sektorunda fəaliyyət göstərir. Bu sahədə son dövrlər atılan addımlar barədə nə deyə bilərsiniz?**

- Həyata keçirilən aqrar islahatlar, dövlət dəstəyinin əhəmiyyətli dərəcədə gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatında mühüm kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verməsinə, fəallığın yüksəlməsinə səbəb olmuşdur.

Aparılan təhlillər, nüfuzlu beynəlxalq qurumların hesabatları bir daha təsdiq edir ki, hazırda respublikamızda qeyri-neft sektorundan ixracın artım tempi bu sahənin öz inkişaf sürətinə tam uyğundur. Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorun daha da inkişaf etdirilməsi məqsədilə investisiya layihələrinin reallaşdırılmasına, güzəştli kreditlərin, subsidiyaların verilməsinə, kənd təsərrüfatının inkişafının stimullaşdırılmasına şərait yaradan qanunvericilik bazasının formalaşdırılmasına xüsusi diqqət yetirilir.

Ölkəmizin müxtəlif bölgələrində yaradılan sənaye məhəllələrinə vergi güzəştlərinin verilməsi, aqrar parkların yaradılması infrastruktur şəbəkələrinin genişləndirilməsinə, aqrar sahədə məhsul istehsalının həcminin artırılmasına, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsinə və diversifikasiyasına, eləcə də ölkənin xarici ticarət dövriyyəsinin artmasına böyük töhfələr vermişdir. Son illərdə aqrar sektorda rəqabət qabiliyyətli məhsulların istehsalını artırmaq yolu ilə respublikamıza valyuta axınını təmin etmək, qeyri-neft sektorunun inkişafı hesabına bir çox məhsul növləri üzrə idxaldan asılılığı aradan qaldırmaq yolunda mühüm nailiyyətlər əldə olunub. Görülən işlər, həyata keçirilən tədbirlər nəticəsində son illərdə kənd təsərrüfatında iqtisadi inkişaf prosesinin artım tendensiyası müşahidə olunmaqdadır. Regionlarda pambıqçılıq, baramaçılıq, ipəkçiliklə bağlı son dövrlər müşahidə edilən fəallıq, eləcə də qeyri-neft sektorunun ixracı ilə bağlı atılan addımlar öz müsbət nəticələrini verir. 2017-ci ilin birinci rübü ərzində qeyri-neft sənayesi 2 faiz, kənd təsərrüfatı 3,5 faiz, kənd təsərrüfatı məhsullarının ixracı isə 44 faiz artmışdır. Sahibkarlığın təşviq edilməsi məqsədilə qısa müddət ərzində investisiya təşviqi üzrə 130 sənəd verilmiş və proqram çərçivəsində ölkə iqtisadiyyatına sahibkarlar tərəfindən 1 milyard 250 milyon manat həcmində sərmayə qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda keçirilmiş qeyri-neft ixracatçılarının respublika müşavirəsində dövlət başçısının regionlarda fəaliyyət göstərən sahibkarlarımızın qarşısında qoyduğu vəzifələrin icrası iqtisadiyyatın şaxələndirilməsi, gələcəkdə davamlı inkişafın qeyri-neft sektoru hesabına təmin edilməsi üçün ölkənin qeyri-neft ixrac potensialının inkişafına mühüm töhfə olacaqdır.

**- 2017-ci ilin birinci rübü ərzində regionlarda fəaliyyət göstərən vergi ödəyiciləri üzrə proqnoz tapşırıqlarının icrası barədə nə deyə bilərsiniz?**

- Regionlarda infrastrukturun inkişafı, yeni iş yerlərinin açılması, ixrac potensialının genişləndirilməsi yalnız bütün vergilərdən azad edilmiş kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vergi ödəyicilərinin deyil, həmin ərazilərdə digər fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicilərinin də iqtisadi aktivliyinə səbəb olmuşdur. 2017-ci ilin birinci rübündə ümumi dövriyyələr ötən ilin müvafiq dövrü ilə müqayisədə 43,1 faiz artmışdır. Pərakəndə ticarət sahəsindən vergi daxilolmaları 6,9 faiz, xidmət sahəsində isə 30,6 faiz artmışdır.

İslahatlar iqtisadi sistemin şəffaflaşmasına, əlverişli biznes mühitinin formalaşmasına, sahibkarlıq subyektlərinin fəaliyyətinin cəlbediciliyinin artırılmasına şərait yaratmış, bütün bunların nəticəsində 2017-ci ilin yanvar-aprel ayları ərzində ərazi vergi orqanları üzrə 20 mindən yuxarı vergi ödəyicisi fəaliyyətini bərpa etmişdir ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 1,1 dəfə çoxdur. Cari ilin birinci rübündə fəaliyyətini bərpa edən obyektlərin sayında 2 dəfə artım olmuşdur.

2017-ci ilin yanvar-aprel ayları ərzində ərazi vergi orqanları tərəfindən dövlət büdcəsinə 155,4 milyon manat proqnoza qarşı 176,6 milyon manat vəsait daxil olmaqla proqnoz tapşırığına 113,6 faiz əməl olunmuş, o cümlədən yerli mənbələr üzrə dövlət büdcəsinə 113,8 milyon manat proqnoza qarşı 135,1 milyon manat vəsait daxil olmuş və ya proqnoz tapşırığına 118,8 faiz əməl edilmişdir.

Ərazi vergi orqanlarının əhatə dairəsinə daxil olan bütün rayon və şəhərlər üzrə proqnoz tapşırıqları, o cümlədən dövlət büdcəsindən dotasiya tələb etmədən öz gəlirləri hesabına xərclərinin ödənilməsinin təmin edilməsi nəzərdə tutulmuş 33 rayon (şəhər) üzrə proqnoz tapşırıqları tam icra olunmuşdur.

**- Bu ilin əvvəlinə bir sıra vergi ödəyicilərinin borcları silindi. Regionlar üzrə belə vergi ödəyicilərinin sayı nə qədər olmuşdur?**

- Azərbaycan Respublikasında sahibkarlığın inkişafının stimullaşdırılması, vergi yükünün optimallaşdırılması məqsədilə ölkə başçısının təşəbbüsü ilə qəbul olunmuş «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanun sahibkarların maliyyə vəziyyətinin sağlamlaşdırılması, onların sərəncamında olan vəsaitlərin həcminin artırılması, sahibkarlığın inkişafının stimullaşdırılması və daha əlverişli biznes mühitinin formalaşdırılması üçün əlavə imkanlar yaratmışdır.

Qanuna əsasən, regionlarda qeydiyyatda olan 38.111 vergi ödəyicisinin 1 yanvar 2017-ci il tarixə olan 107 milyon manat borcu silinmişdir ki, bu da vergi ödəyiciləri tərəfindən rəğbətlə qarşılanmış və sahibkarların maliyyə vəziyyətinin sağlamlaşdırılmasına, onların sərəncamında olan vəsaitlərin həcminin artmasına şərait yaratmışdır. Bundan əlavə, 3285 vergi ödəyicisi tərəfindən maliyyə sanksiyaları üzrə borclarının müəyyən faizi ödənilərək, onların daha 4,8 milyon manat borclarının silinməsi də təmin edilmişdir.

**- «Nağdsız hesablaşmalar haqqında» Qanunun icrası ilə bağlı işlər nə yerdədir?**

- Nağdsız əməliyyatların həcminin artması, bankların maliyyə vəziyyətinin yaxşılaşması, pul dövriyyəsinin tənzimlənməsi, onların likvidliyinin və büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin edilməsi məqsədilə «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir və bu Qanunun tələblərinin pozulmasına görə maliyyə sanksiyasının tətbiq olunması ilə bağlı Vergi Məcəlləsinə müvafiq maddə daxil edilmişdir.

Təhlillər göstərir ki, hələ də bəzi vergi ödəyiciləri əməliyyatlarını nağd şəkildə aparmaq vərdişindən əl çəkməmişlər və bununla əlaqədar ərazi vergi orqanları tərəfindən maarifləndirmə və izahat işləri davam etdirilməkdədir.

Uzun illər ərzində nağd hesablaşmalara öyrəşən insanlar üçün nağdsız ödənişlərə keçidin bəzi suallar yaratması təbii və başadüşüləndir. Ona görə də dövlət bu məsələdə kifayət qədər təmkin və dözümlülük nümayiş etdirir. Xatırlatmaq yerinə düşər ki, nağdsız ödənişlərin həcminin artırılması ilə bağlı uzun illər müzakirələr aparılmış və hələ 2011-ci ilin noyabr ayında ölkə başçısı Nazirlər Kabinetinin ilin doqquz ayının yekunları ilə bağlı iclasındakı çıxışında bu məsələ ilə bağlı siyasi iradəsini və konkret mövqeyini açıq şəkildə bildirmişdir.

Hazırda dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində maliyyə axınları şəffaf həyata keçirilir və nağdsız ödənişlərin xüsusi çəkisi 60-80 faiz təşkil edir. Bəzi Skandinaviya ölkələri isə hətta bir neçə il əvvəl tezliklə nağd puldan ümumiyyətlə imtina etmək niyyətində olduqlarını bəyan etmişlər.

Sirr deyil ki, nağd hesablaşmaların xüsusi çəkisinin çox olduğu ölkələrdə terrorçuluğun maliyyələşdirilməsi, korrupsiya və rüşvətin geniş vüsət alması bu kimi neqativ hallara qarşı mübarizəni çətinləşdirir. Nağdsız ödənişlərin həcminin artırılması, ilk növbədə, pul dövriyyəsinin tənzimlənməsinə müsbət təsir göstərməklə yanaşı, maliyyə sektorunda kifayət qədər canlanma yaradacaq, vergidən yayınma hallarının azalmasına gətirəcək və təbii ki, həm də vergi daxilolmalarının artmasına birbaşa təsir edəcək.

## Lokal Gəlirlər Departamentində vergi ödəyiciləri ilə görüş keçirilib

Vergilər Nazirliyi yanında Lokal Gəlirlər Departamentində Bakı şəhəri ərazisində fəaliyyət göstərən sahibkarlarla, eləcə də sahibkarların ictimai birlikləri, assosiasiyaları və qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüş keçirilib. Görüşün məqsədi "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanunun və "Nağdsız hesablaşmalar haqqında" Qanunun tətbiqi, Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli Qərarı ilə "Elektron qaimə-fakturanın forması" və "Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları", Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması" və "Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydaları"nın tətbiqi, həmçinin "İnsan Hüquqları Aylığı" ilə bağlı insan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində müzakirələr aparmaqdan ibarət olub.

Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu Departamentinin baş direktoru Ələkbər Məmmədov bildirib ki, vergi qanunvericiliyində baş vermiş dəyişikliklərin mahiyyətinin iş adamlarına çatdırılması məqsədilə cari ilin əvvəlindən geniş miqyaslı maarifləndirmə və məlumatlandırma təbirləri həyata keçirilməkdədir. Bu məqsədlə bütün vergi ödəyicilərinin elektron qutularına məktublar göndərilir, izahlı praktiki vəsait və bukletlər hazırlanaraq, Vergilər Nazirliyinin internet saytında, sosial şəbəkələrdə və digər kütləvi informasiya vasitələrində yerləşdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamından irəli gələn məsələlərin həlli ilə bağlı vergi sistemində aparılan islahatlar hüquqi bazanın təkmilləşdirilməsindən tutmuş vergi inzibatçılığının yenidən qurulmasına qədər bütün sahələri əhatə edir.

Bu baxımdan əlavə məlumatlandırma tədbirlərinə ehtiyac yarandığını nəzərə alaraq, Vergi Məcəlləsinə və digər aidiyyəti normativ hüquqi aktlara edilən dəyişikliklərlə bağlı sahibkarlarla, eləcə də sahibkarların ictimai birlikləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri, iri istehsalçılar, ixrac və topdansatış, tikinti nəqliyyat və logistika, təhsil, səhiyyə, ictimai iaşə və pərakəndə ticarət və s. fəaliyyətlə məşğul olan vergi ödəyiciləri ilə görüşlərin qrafiki hazırlanıb. Qrafikə əsasən, may ayının 24-dək Bakı şəhərində, 19-dək isə regionlarda fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüşlərin keçirilməsi nəzərdə tutulur. Görüşdə sahibkarların və QHT nümayəndələrinin "Nağdsız hesablaşmalar haqqında" Qanunun tətbiqi ilə əlaqədar bank hesablarından vəsaitlərin nağdlaşdırılması, belə əməliyyatlara 1 faizlik sadələşdirilmiş verginin tətbiqi ilə bağlı yaranan bir sıra çətinliklər, ictimai iaşə və pərakəndə ticarət fəaliyyəti sahəsində gəlirlərin və xərclərin uçotunun aparılması ilə bağlı yeni qəbul edilmiş qaydalar, əldə edilən malların, iş və xidmətlərin sənədləşdirilməsi, uçotun şəffaflığının təmin edilməsi ilə bağlı ortaya çıxan sualları cavablandırılıb.

## Büdcə tapşırıqları tam həcmdə icra olunub

2017-ci ilin yanvar-aprel ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 2 milyard 256 milyon 748 min manat məbləğində vəsait ödənilərək, Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırıqlarına 106,3% əməl olunub.

## «Vergilər» mövzusunda olimpiadaya yekun vurulub

May ayının 5-də Vergilər Nazirliyinin Şamaxıda yerləşən Tədris Mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş «Vergilər» mövzusunda 11-ci olimpiadanın yekun mərhələsi keçirilib.

Ölkəmizin 17 ali məktəbini təmsil edən 300-dən yuxarı tələbə və magistrant Tədris Mərkəzi tərəfindən hazırlanmış xüsusi test bazası əsasında vergilər sahəsində öz biliklərini yoxlayıblar. Nəticələr imtahan komissiyasının iştirakı və nəzarəti altında xüsusi kompüter proqramları vasitəsilə müəyyən edilib.

ADİU-nun Elm Mərkəzinin rəhbəri, professor Zahid Məmmədov çıxış edərək təklif etmişdir ki, Vergilər Nazirliyinin Tədris Mərkəzinin nəzdində «xalq məktəbləri» açılsın və vergi sahəsində tələbələrin, iş adamlarının, ictimaiyyətin maarifləndirilməsi ilə əlaqədar işlər burada davam etdirilsin».

Z.Məmmədov bildirmişdir ki, vergi olimpiadalarının qalibi gələcəkdə vergi orqanlarına imtahansız qəbul oluna bilər: «Lakin qaliblərin əksəriyyəti maliyyə və ya vergi ixtisası üzrə təhsil almadıqlarından, gələcəkdə müəyyən problemlərlə qarşılaşa bilərlər. Buna görə də yaxşı olardı ki, vergi olimpiadasının qalibləri - tələbələr, magistrantlar öz istəkləri ilə ixtisaslarını dəyişə bilsinlər». Xatırladaq ki, ulu öndərin xatirəsinə həsr olunmuş «Vergilər» mövzusunda olimpiadanın ilkin seçmə mərhələsi aprel ayının 16-da Bakı şəhərinin ali məktəblərinin və Sumqayıt Dövlət Univerisitetinin tələbələri üçün Azərbaycan Dövlət İqtisad və «Azərbaycan» universitlərində, Naxçıvan Muxtar Respublikası üzrə Naxçıvan Dövlət Universitetində, digər şəhərlər üzrə Mingəçevir Dövlət Universiteti və Gəncə Dövlət Universitetində, bir gün sonra isə Lənkəran Dövlət Universitetində keçirilib. Bu mərhələdə Bakı və Sumqayıt şəhərləri üzrə 193, Naxçıvan Muxtar Respublikasının ali məktəbləri üzrə 22, Lənkəran Dövlət Universitetindən 37, Gəncə Dövlət Universitetindən 32, Mingəçevir Dövlət Universitetindən isə 37 tələbə olmaqla, ümumilikdə, 321 tələbə iştirak edib. İmtahan şəffaf şəraitdə keçirilməklə nəzərdə tutulan mövzular əsasında Vergilər Nazirliyinin Tədris Mərkəzi tərəfindən hazırlanmış 50 test sualı üzrə 90 dəqiqə davam edib və vaxtında başa çatdırılıb. İmtahanın gedişatına vergi orqanlarının məsul şəxsləri tərəfindən nəzarət edilib və nəticələr qiymətləndirilmə üçün Vergilər Nazirliyinin Tədris Mərkəzinə verilib. Olimpiadanın ilkin mərhələsindən uğurla keçmiş 61 nəfər bakalavr və magistr yekun mərhələdə iştirak etmək hüququ qazanıblar.

Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəhbəri Əli Həsənov bütün iştirakçılara minnətdarlığını bildirib, ən yüksək nəticə göstərmiş bakalavrlar və magistrantların, həmçinin onların müəllimlərinin adlarını elan edərək, qaliblərə təbriklərini çatdırıb.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

**Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

# İnformasiya cəmiyyətində müəlliflik və digər əqli mülkiyyət hüquqlarının mədəni, iqtisadi və hüquqi əhəmiyyəti

***"Musiqi kliplərinin yayımı ilə bağlı Almaniyada məhkəməyə verilən Youtube iddianı uduzdu", "Aplle-dan Qualcomm-a 1 milyard dollarlıq müəllif hüquqları iddiası" ...Gördüyümüz kimi, müəllif hüquqları ilə bağlı zaman-zaman böyük və yetəri qədər məşhur korporasiyalar da məhkəmə çəkişmələrinə cəlb olunmuş, hətta bəzən iddianı uduzmuşlar. Təbii ki, müəllif hüquqları geniş anlayışdır və bu cür problemlər hərdən qanunu tam olaraq anlamamaqdan irəli gəlsə də, bəzən bilərəkdən pozulma halları ilə də qarşılaşmaq mümkündür. Qanunları bilmək önəmli olduğu qədər onu başa düşmək və əməl etmək də vacibdir. Xüsusilə, yaşadığımız informasiya cəmiyyətində bu məsələlər daha böyük önəm kəsb etməyə başlamışdır.***

**"Bir insan barəsində yol verilmiş ədalətsizlik hamı üçün hədədir"**

Fransız filosofu Şarl Lui Monteskyo tərəfindən çox yerində deyilmiş bu sözləri elə müəlliflik hüququ ilə bağlı məsələlərə də aid etmək olar və bu "hədə"lərin də qarşısını almaq üçün qanunlara müraciət edilir. Qanunlara, əsasən də insan əməyinin nəticəsi olaraq ərsəyə gələn məhsullar ilə bağlı qanunlara əməl olunması ilk növbədə etik xarakter daşıyır. Çünki hər hansı bir məhsul kiminsə, yaxud kimlərinsə əməyinin, zəhmətinin nəticəsi olaraq yaranır. Xüsusilə, müasir dövrdə icazəsiz surəti çıxarılaraq yayılan çoxsaylı kitab, CD, musiqi əsəri və s. kimi xəbərlərlə tez-tez qarşılaşırıq. Əqli mülkiyyət anlayışı da insan zəkasının, onun intellektual biliyinin, zehni əməyinin ortaya çıxardığı musiqidən ədəbiyyata, sənaye yeniliklərindən elmi innovasiyalara qədər uzanan geniş bir sahəni əhatə edir. Təbii ki, hər hansı bir məhsul biz onu ictimaiyyətə açıqlamadığımız və ikinci şəxslərə demədiyimiz müddətcə qorunmaq ehtiyacı da yaratmayacaqdır. Ancaq istər fikir, istərsə də hazır məhsul olaraq onun haqqında başqasına dedikdə və ya iqtisadi məqsədlə ictimaiyyətə açıqladıqda, hüquqi cəhətdən qorunma ehtiyacı da yaranmış olur.

**Şəxsi, yoxsa ictimai maraqlar, hansını seçməli?**

Əqli mülkiyyət hüququ həm sənaye yeniliklərinin (texnoloji yeniliklər, yeni modellər və s.), həm də audioviziual əsərlərin (ədəbiyyat, musiqi, incəsənət əsərləri və s.) qorunması məsələlərini özündə birləşdirir. Bu əsərlərin hər biri istər estetik zövqümüzə təsir baxımından, istərsə də fiziki əməyi yüngülləşdirmək yönündən cəmiyyət üçün faydalıdır. Elə ölkəmizdə də müəlliflik hüququnun subyekti olan əsərlərə daha çox yaradıcı və mədəni aspektdən yanaşılır. İlk olaraq həmin məhsulun cəmiyyət üçün əhəmiyyəti və onun müəllifinin hüquqlarının qorunması nəzərə alınır. Təbiidir ki, hər bir müəllif öz əsərini ictimaiyyətə açıqlayarkən yalnız rəğbət hissini güdmür, həmçinin öz mənfəətini də diqqətə alır. Lakin hər yeni əsərdə iqtisadi maraqlardan əvvəl onun ictimai əhəmiyyəti və cəmiyyətə verəcəyi fayda nəzərə alınmalıdır. Çünki biz hər hansı məhsula iqtisadi və kommersiya maraqlarından yanaşdıqda, istər-istəməz şəxsi maraqları ictimai maraqların önünə qoymuş oluruq. Təbiidir ki, bu, heç də düzgün yanaşma olaraq qiymətləndirilə bilməz. Tutaq ki, insanların həyat boyu əziyyət çəkdikləri hansısa sağlıq problemi ilə bağlı çox böyük əhəmiyyət daşıyan yeni məhsul hazırlanıb. Belə məqamda isə maraqlı və mübahisə doğuran çoxsaylı suallar meydana çıxır: ilk növbədə müəllif hüququ məsələsini, patentləşdirmə işinimi həll etmək lazımdır, yoxsa həyatı məhz həmin məhsuldan asılı olan insanlarımı düşünmək? Yaxud hansısa ölümcül xəstəliyi müalicə edəcək bu məhsulun qiyməti patentləşdirmə ilə əlaqədar həddən artıq qalxır və xəstələr onu ala bilmirlərsə, prioritet olaraq insaların həyatımı, yoxsa həmin məhsulun patentləşdirilmə qiymətimi götürüləcək? Bu suallara subyektivlikdən çıxış edərək, hər kəs fərqli cavablar verə bilər, lakin obyektiv cavab vermək bir qədər çətindir. Çünki onu da nəzərə almaq lazımdır ki, əgər məhsul öz sahibinə kifayət qədər qazanc gətirmirsə, onun iqtisadi maraqlarını təmin etmirsə, bu, onu yeni araşdırmalara təşviq də etməyəcək. Ona görə də bu mövzuların müzakirəsi istər-istəməz mübahisə doğurur.

**Varislərə etibar etmək olarmı?**

Hər bir məhsulun, yaxud əsərin müəlliflik hüququ ilə qoruna bilməsi üçün onun qeydiyyatdan keçməsi, daha doğrusu, patentləşdirilməsi çox vacibdir. Bu, müəllifin həmin məhsul üzərində hüquqlarının qorunması baxımından da çox önəmlidir. Lakin nəzərə alaq ki, məhsulların, əsərlərin qorunma müddəti müəyyən bir dövrü əhatə edir. Bu, xüsusilə ədəbiyyat və incəsənət sahəsinə aid əsərlərdə hər zaman mübahisə mövzusu olmuşdur. Təbiidir ki, ədəbi və bədii əsərlər ictimai və mədəni maraqlar baxımından mühüm əhəmiyyət daşıyır və o əsərlərin ictimaiyyətə açıqlanması ölkənin mədəni səviyyəsində də özünü göstərir. Lakin bəzən elə olur ki, hansısa yazıçının, yaxud şairin ölümü ilə onun əsərləri ailənin digər üzvlərinə miras qalır. Həmin şəxslər isə bu əsərlərin şəxsi, ya hansısa digər səbəblərdən cəmiyyətə açıq olmasına imkan vermir. Buna nümunə olaraq məşhur İrland yazıçı və şairi Ceyms Coysu göstərmək olar. O, "Rəssamın cavanlıq portreti", "Uliss" romanlarının, "Sürgün olunmuşlar" pyesinin, "Dublinlilər" kitabının və s. müəllifidir. Yazıçının ölümü ilə onun bütün əsərləri nəvəsi Stefan Coysa miras qalır. Lakin o, bu "miras"ın tək bir cümləsinin yayımlanmasına, hətta babasının əsərlərinə hansısa kinoların çəkilməsinə, teatrların təşkilinə belə imkan vermir, kiçik icazə almaq belə çox böyük çətinliklərlə başa gəlirdi. Hətta Stefan Coys əsərlərdən bircə sətir götürüb istifadə edənlərə qarşı da məhkəməyə müraciət edirdi. Əlbəttə, biz yazıçının əsərlərinin nəvəsi tərəfindən bu cür "mökhəm" qorunmasını ictimai və mədəni baxımdan mənfi hal kimi qiymətləndiririk. Ancaq onu da nəzərə almaq lazımdır ki, çox vaxt bu cür addımlar sırf o əsərin ilk günkü dəyərini saxlamaq məqsədi daşıyır. Yəni, varislər sadəcə əsəri edilə biləcək dəyişiklik və təhriflərdən qorumağa çalışırlar. Bəzən isə varislər ümumiyyətlə müəllifin vəsiyyətinə əməl etmirlər, yaxud onlara etibar edilən əsərlərin taleyi ilə maraqlanmır və etinadsız yanaşırlar. Lakin bunun yaxşı və ya pis bir hal olduğunu demək isə çox çətindir. Məsələn, əgər Maks Brod yaxın dostu Frans Kafkanın vəsiyyətini yerinə yetirsəydi, biz bu gün onun əsərlərinin bir çoxu ilə tanış ola bilməyəcəkdik. Çünki Kafka Broda ölümündən sonra əsərlərinin yandırılıb yox edilməsini vəsiyyət etmişdi, lakin Brod onları yandırmadı, əksinə yayımladı. Təbii ki, bu cür məsələlərdə də müəllif hüquqları mübahisə doğurur.

**Kommersiya maraqlarını pozan amillər**

Nəzərə alaq ki, hər bir məhsulun, əsərin ərsəyə gəlməsi nəinki onun müəllifinin əməyinin, zəhmətinin, həmçinin sərf etdiyi müəyyən xərclərin də nəticəsidir. Ona görə də burada iqtisadi və kommersiya maraqlarının da gözlənilməsi normaldır. Hər bir müəllif də təbii olaraq əməyinin qarşılığını almalı, başqa şəxslər isə icazəsiz və qarşılığını ödəmədən bundan yararlanmamalıdır. Müəllif hüququ ilə qorunan əsərlərdə iqtisadi və kommersiya maraqları daha çox xarici ölkələrin təcrübəsinə xas amildir. Belə məhsul və ya əsərlərdə iqtisadi maraqların toqquşması daha çox ticarət markaları və adları ilə bağlı olur. Çünki hər markanın öz alıcıları var və həmin marka sahibi də o markanın dəyərini hər zaman yüksək tutaraq, bundan qazanc götürür. Lakin bəzən müxtəlif şəxs və ya təşkilatlar o marka ilə eyni adda məhsul istehsal edirlər. Bu da müəllifin hüquqlarını pozmaqla bərabər, onun əziyyətlə formalaşdırdığı addan asan şəkildə yararlanmaqla nəticələnir. Lakin burada yalnız iqtisadi maraqlar pozulmur. Çünki bəzən eyni ticarət markasından istifadə edən şəxs və ya təşkilatın məhsulu mövcud markanın məhsullarından keyfiyyət göstəriciləri baxımından çox-çox geridə qalır ki, bu da müştəri maraqlarının itirilməsi və həmin markanın adına xələl gəlməsi deməkdir. Son nəticədə, təbii ki, bu, yenə də müəllifin kommersiya maraqlarına mənfi təsir göstərir. Hətta bəzən bir hərflə fərqlənən ticarət markaları adına da təsadüf edilir. Təbii ki, burada ad tam eyni olmasa da, az məlumatlı və ya həmin markanın adını təxmini eşitmiş biri üçün o məhsulun nə qədər keyfiyyətli olub-olmaması da mübahisə doğurur. Ona görə də bəzən bu tipli məhkəmə çəkişmələrinə də rast gəlinir və mövcud vəziyyət qanundan çıxış edərək tənzimlənir.

**Haqlar necə qorunur?**

Belə məhsul, yaxud əsərlərin çoxaldılaraq satılması və ya başqa bir məhsulun hazırlanması üçün müxtəlif şəxs və ya təşkilatlara icazələrin verilməsi, o cümlədən bunlarla bağlı müqavilələrin bağlanması zamanı bu haqların qorunması və hüquqi məsələlər gündəmə gəlir. Müəlliflik və əqli mülkiyyət hüquqlarının qorunmasının ilk baxışda ölkədaxili normativ hüquqi qaydalarla qorunmasının yetərli olduğunu düşünə bilərik. Bu da normaldır. Çünki hər bir ölkədə müəllif hüquqlarının qorunması o ölkənin səlahiyyətli qurumlarına aiddir. Lakin nəzərə alsaq ki, hər hansı məhsul bazara çıxarıldığı zaman müəlliflik və əqli mülkiyyət hüquqlarının da sərhədlərini genişləndirir, deməli, burada artıq beynəlxalq normalar da əhəmiyyət daşımağa başlayır.

Müəllif hüquqlarına dair ən mühüm beynəlxalq razılaşmalar 1883-cü ildə imzalanmış Paris Konvensiyası və 1886-cı ildə imzalanmış Bern Konvensiyasıdır. Bu konvensiyalar ilə sənaye yenilikləri, bunlarla bağlı yaranan kommersiya məsələləri, əqli mülkiyyət hüquqlarının qorunması mövzusunda beynəlxalq əməkdaşlıq, bu sahədə ehtiyac duyulan hüquqi tənzimləmələr əhatə olunmuşdur. İlk başlarda yalnız müqavilələrin həyata keçirilməsini izləmək məqsədilə yaradılan bir sıra bürolar isə zamanla inkişaf edərək, WIPO-ya (World Intellectual Property Organization), yəni ÜƏMT-yə (Ümumdünya Əqli Mülkiyyət Təşkilatı) çevrilmişdir. ÜƏMT-yə üzv olan dövlətlərin sayı 200-ə yaxındır. Azərbaycan Respublikası isə 1995-ci ildə ÜƏMT-yə üzv olmuşdur və bu təşkilatın əqli mülkiyyət hüquqlarının fərqli sahələrini tənzimləyən 23 razılaşmasından 17-sinə tərəfdir. Ölkəmizdə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu isə 1996-cı il iyunun 5-də qəbul olunmuş, oktyabrın 23-dən qüvvəyə minmişdir.

**Hüseynova Mətanət**

# «Bakı Şampan Şərabları» ASC-nin 31 dekabr 2016-cı il tarixinə mühasibat balansı

| | 2016-cı il | 2015-ci il |
|---|---|---|
| AKTİVLƏR | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər) | 5073270,00 | 4935668,00 |
| Qeyri-maddi aktivlər | 27500,00 | 27500,00 |
| Bioloji aktivlər | 72362,00 | 72362,00 |
| Uzun müddətli debitor borçlar | - | - |
| Təxirə salınmış vergi aktivləri | 8781,00 | 8781,00 |
| Sair uzunmüddətli aktivlər | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **5181913,00** | **5044311,00** |
| *Qısamüddətli aktivlər* | | |
| Ehtiyatlar | 1972319,00 | 2214099,00 |
| Qısamüddətli debitor borçları | 190990,00 | 364299,00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 16351,00 | 11985,00 |
| Sair qısamüddətli maliyyə aktivləri | - | - |
| Sair qısamüddətli aktivlər | 95184,00 | 90273,00 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **2274844,00** | **2680656,00** |
| **CƏMİ AKTİVLƏR** | **7456757,00** | **7724967,00** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapital | 7369018,00 | 7595668,00 |
| Kapital ehtiyatları | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 2666,00 | 1203,00 |
| **CƏMİ KAPİTAL** | **7371684,00** | **7596871,00** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Uzun müddətli öhdəliklər | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | - | - |
| *Qısamüddətli öhdəliklər* | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 929,00 | 45878,00 |
| Qısamüddətli qimətləndirilmiş öhdəliklər | - | - |
| Qısamüddətli kreditor borçları | 84143,00 | 82184,00 |
| Gələcək dövrün gəlirləri | - | - |
| Sair qısamüddətli öhdəliklər | - | 33.00 |
| | **85073,00** | **128096,00** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **85073,00** | **128096,00** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **7456757,00** | **7724967,00** |

**"Bakı Şampan Şərabları"ASC**
**İdarə heyətinin sədri:** S. C.Cəfərov
**Baş mühasib:** X.H.Hüsiyev
**14 mart 2017-ci il**

**"Bakı Şampan Şərabları"ASC**
**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI**

*Azərbaycan Manatı ilə*

| | QEYD | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | | 1144045,00 | 431845,00 |
| Satışın maya dəyəri | | (1042952,00) | (391766,00) |
| **Ümumi mənfəət** | | **101093,00** | **40079,00** |
| Sair əməliyyat gəlirləri | | 185644,00 | 206633,00 |
| Kommersiya xərcləri | | (46642,00) | (34987,00) |
| İnzibati xərclər | | (77627,00) | (59741,00) |
| Sair əməliyyat xərcləri | | (156939,00) | (150480,00) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **5530,00** | **1504,00** |
| Maliyyə gəlirləri | | - | - |
| Maliyyə xərcləri | | - | - |
| | | - | - |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **5530,00** | **1504,00** |
| Mənfəət vergisi | | (2864,00) | (301,00) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **2666,00** | **1203,00** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| Səhmdarların payı | | - | - |

**"Bakı Şampan Şərabları"ASC**
**İdarə heyətinin sədri:** S. C.Cəfərov
**Baş mühasib:** X.H.Hüsiyev
**14 mart 2017-ci il**

**«Bakı Şampan Şərabları » Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə**

**Müstəqil auditorun hesabatı**

**Rəy**

Mən "Bakı Şampan Şərabları" ASC-nin 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına (KTMMUS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına (KTMMUS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir. .

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyətinin əlavə təsviri [*Təşkilatın*] internet səhifəsində: [*internet səhifəyə keçid*] yerləşir. Bu təsvir auditor hesabatının tərkib hissəsidir. .

Hesabat 14.03.2017-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri "**Bakı Şampan Şərabları** " **ASC–nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə sərbəst auditorda saxlanılır.

**Sərbəst auditor:** X.C.Əliyev
**M.Y**
**14 mart 2017-ci il**

# "PAŞA Həyat"da iki dəfə artım

Aktivlərinin ümumi həcminə görə Azərbaycanın ən iri sığorta şirkəti olan "PAŞA Həyat" 2017-ci ilin yanvar-aprel ayları üzrə əsas maliyyə göstəricilərini açıqlayıb.

Şirkətin ictimaiyyətlə əlaqələr xidmətindən verilən məlumata görə, operativ məlumatlar əsasında hazırlanan hesabatın nəticələrinə əsasən, cari ilin ilk 4 ayında "PAŞA Həyat" tərəfindən ümumilikdə 52,408 mln. manat həcmində sığorta haqqı toplanılıb ki, bu da 2016-ci ilin müvafiq dövrü ilə müqayisədə 26,026 mln. manat və ya təxminən iki dəfə çoxdur.

Hesabat dövründə baş vermiş müxtəlif sığorta hadisələrinə görə "PAŞA Həyat" tərəfindən ödənilən sığorta ödənişlərinin həcmi isə 2,778 mln. manat və ya 37% artaraq 10,109 mln. manata çatıb.

Cari ilin aprel ayının 1-nə nizamnamə kapitalanın həcmi 40,250 mln. manat təşkil edən "PAŞA Həyat" şirkəti 2011-ci ilin fevral ayından fəaliyyət göstərir. Şirkət müştərilərə sərfəli şərtlərlə müxtəlif həyat sığortası məhsulları, o cümlədən "həyatın müddətli sığortası", "istehsalatda bədbəxt hadisələrdən icbari sığorta", "yığım tərkibli yaşam sığortası", "sağalmaz xəstəliklərdən sığorta", "Ailəmin PAŞA Güvənliyi" adlı fərdi könüllü həyat sığortası məhsulları təklif edir.

# AccessBank-a etibar edən əmanətçilərin sayı artır

AccessBank cari ilin birinci rübünü müsbət göstəricilərlə başa vurub. Belə ki, bankın açıqladığı maliyyə göstəricilərinə əsasən cəmi kapitalı 28% artaraq 67 milyon 348 min manatadək yüksəlib.

Diqqətçəkən amillərdən biri də əhalinin AccessBank-a manatla yatırdığı əmanətlərin məbləğinin əhəmiyyətli dərəcədə artmasıdır. Belə ki, birinci rübün sonunda Bankın əmanət portfeli 7% artım nümayiş etdirərək, 301 milyon 795 min manat təşkil edib.

"Bu isə müştərilərin AccessBank-a sərgilədiyi yüksək etimadının göstəricisidir. AccessBankın Azərbaycan bankları arasında ən yüksək reytinqə və 100% xarici kapitala malik olması bir daha AccessBank-ın stabilliyini və etibarlılığını təsdiq edir", - məlumatda deyilir.




Həmçinin, müştəriləri cəlb edən xüsusiyyətlərdən biri də odur ki, AccessBank müştərilərinin ehtiyaclarına uyğun olaraq, həm fiziki, həm də hüquqi şəxslərə müxtəlif əmanət növlərini təklif edir. Bank müştərilərə sərfəli şərtlərlə "Müddətli", "Yüksələn", "Yığım" və "Əlverişli" əmanətlər təklif edərək, istənilən müddətə yatırım etmək üçün şərait yaradır.

# Orta aylıq əməkhaqqı açıqlandı

2017-ci il aprelin 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1515,8 min nəfər olmuş, onlardan 889,2 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 626,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib.

Muzdla işləyənlərin 22,1 faizi təhsil, 19,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,2 faizi tikinti, 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 10,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2017-ci ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,9 faiz artaraq 514,3 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, tikinti, eləcə də peşə, elmi və texniki fəaliyyət sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Pərakəndə ticarət dövriyyəsi artıb

2017-ci ilin yanvar-aprel aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 1,7 faiz üstələyərək, 10,2 milyard manata bərabər olmuşdur.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, ticarət dövriyyəsinin 50,6 faizini ərzaq məhsulları, içkilər və tütün məmulatları, 49,4 faizini qeyri-ərzaq məhsulları təşkil etmiş və satılmış məhsulların dəyəri 2016-cı ilin yanvar-aprel aylarının göstəricilərini real ifadədə müvafiq olaraq 0,6 faiz və 2,7 faiz üstələmişdir.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 45,2 faizi ərzaq məhsullarının, 5,4 faizi içkilər və tütün məmulatlarının, 17,7 faizi toxuculuq məhsulları, geyimlər və ayaqqabıların, 6,4 faizi elektrik malları və mebellərin, 4,9 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,3 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

2017-ci ilin yanvar-aprel aylarında istehlak məhsullarının 11,4 faizi hüquqi şəxs statuslu müəssisələr, 53,5 faizi fərdi sahibkarlar tərəfindən, 35,1 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2016-cı ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə hüquqi şəxslər üzrə 2,7 faiz, fərdi sahibkarlar üzrə 2,5 faiz artmış, bazar və yarmarkalar üzrə isə sabit qalmışdır.

# "Unibank" ayda 19 manat ödənişdən başlayan nağd kreditlər təklif edir

İndi yay planlarınızı həyata keçirmək üçün böyük məbləğdə kredit götürə bilərsiniz. Unibank nağd kreditlərin maksimal məbləğini 15.000 manata qaldırdı, nağd kreditlər üzrə aylıq ödənişlərin həcmi isə 19 manatdan başlayır.

Bankdan Trend-ə verilən məlumata görə, rəsmi gəliri olan hər bir ölkə vətəndaşı Unibanka nağd kredit üçün müraciət edə bilər.

Unibankdan nağd kredit götürmək sizə hansı üstünlükləri verir?

Kreditin aylıq minimum ödənişləri 19 manatdan başlayır.

Minimum əməkhaqqı tələbi cəmi 175 AZN-dir.

Faiz dərəcəsi 23%-dən başlayır.

Kreditin müddəti 36 ayadəkdir.

Kreditin rəsmiləşdirilməsi zamanı komissiya cəmi 1%-dir.

Heç bir zamin tələbi yoxdur.

Kredit proseduru çox sadədir.

Nağd kreditlə bağlı bank filiallarına müraciət edə və eləcə də Unibank Mobile-dan və yaxud unibank.az saytından onlayn kredit sifariş edə bilərsiniz.

Unibankın 4 bank məhsulunu birləşdirən unikal ALBALI PLUS kredit kartı da ölkə vətəndaşları üçün əlçatandır. Rəsmi gəliri olan hər kəs Unibank filiallarına 5000 AZN-dək kredit xətti olan ALBALI PLUS kartı ilə bağlı müraciət edə bilər. ALBALI PLUS beynəlxalq kart olduğundan ölkə xaricində də çox rahatlıqla istifadə edə bilərsiniz. Yay planlarınızı bizimlə reallaşdırın!

Unibank hazırda paytaxt və bölgələri əhatə edən geniş filial şəbəkəsi ilə ölkə vətəndaşlarının xidmətindədir. Müştərilərin rahatlığı naminə Unibank-ın filialları, həftənin 5 günü nahar fasiləsi olmadan səhər saat 09.00-dan axşam 17.00-dək fəaliyyət göstərir. Banka gəlmədən də bank xidmətlərinin əksər hissəsindən Unibank Mobile-ın köməyi ilə istifadə edə bilərsiniz.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Turhan Poyraz: "Lüks otel üçün önəmli olan keyfiyyət standartlarının davamlılığını saxlamaqdır"

Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son 10 il ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya getdikcə daha geniş şəkildə təmin olunur.

Bu il aprelin 10-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı demişdir: "Keçən il turistlərin, xarici vətəndaşların ölkəmizə səfərləri 11 faiz artmışdır. Bu ilin birinci rübündə artıq 25 faiz artım var. Bu da çox gözəl göstəricidir. Bunun, əlbəttə ki, bir çox səbəbləri var. Birincisi, Azərbaycanda mövcud olan və son illər ərzində yaradılmış müasir infrastruktur. Bizim 6 beynəlxalq aeroportumuz var. Bizim ən son modellərlə təchiz edilmiş hava nəqliyyatımız var. Bütün bölgələrə gözəl yollar çəkilibdir. Bakıda və bölgələrdə gözəl otellər tikilibdir. Bakıda dünyanın, demək olar ki, bütün aparıcı otel şəbəkələri öz otellərini idarə edirlər. Bütün bölgələrdə müasir otel infrastrukturu, müalicəvi turizm inkişaf edir".

Bəli, qürurverici həqiqətdir ki, şəhərimiz gündən-günə gözəlləşir, müasirləşir, eyni zamanda, qədim tarixini də qoruyub saxlayır. Məhz buna görə də xarici turistlərin diqqətini cəlb edir. Bunun nəticəsidir ki, ölkəmizə turist axını ildən-ilə artır, artıq turizm bütün dünyada olduğu kimi, Azərbaycanda da ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilməkdədir. Turizm sektorunun davamlı inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir.

Hazırda bölgələrlə yanaşı, Bakıda da turizm sənayesi yeni inkişaf mərhələsini yaşayır. Paytaxt şəhərimiz dünyanın məşhur beşulduzlu otel brendlərinin cəmləşdiyi məkana çevrilib.

Yolumuz onlardan birinə - Heydər Əliyev prospektində, şəhərin mərkəzindən 4 dəqiqəlik məsafədə yerləşən, Bakının sayılıb-seçilən beşulduzlu "Excelsior Hotel & Spa Baku" otelinədir. Müsahibim otelin baş meneceri Turhan Poyrazdır. Turhan bəylə müsahibəni diqqətinizə çatdırırıq.

**- Turhan bəy, necə oldu ki, Bakıya gəlib iş qurdunuz? Azərbaycan Sizi nə ilə cəlb etdi?**

- Mən Azərbaycana 2000-ci ildə gəlmişəm və ilk gündən Bakıya vurulmuşam. Bakını təkcə ən gözəl şəhər olduğuna görə deyil, ən sakit şəhər olduğuna görə sevdim. Bu şəhər insanların çox mehriban olduğu bir şəhərdir. Mən İstanbuldan gəlmişdim və onun tıxaclar şəhəri olduğu hamıya bəllidir. Bakıda ilk keçirdiyim zamanlarda tıxac deyilən bir şey görmədim. İnsanların həyat tərzi çox sakit idi, küçələrdə heç dava edən görmədim, düşünürdüm ki, burada insanların əsəbləri həmişə sakitdirmi, heç dava edən yoxdurmu? Baxdım, düşündüm ki, nə qədər gözəl bir həyat... və burada uzun müddət qalmağa qərar verdim. Mən buraya bir şirkət quraraq gəldim. Qurduğum şirkət reklam, marketinq və konsaltinq şirkəti idi. Onu da qeyd edim ki, mənim təhsilim otel idarəçiliyidir. Uzun illər Türkiyədə otelçiliklə məşğul olmuşam. Gənc idim və bu iş vaxt aparan, tətilsiz, davamlı iş olduğu üçün düşündüm ki, bir az bu işdən ayrılım. Ona görə də ailəmizin işi olan reklam, marketinq və konsaltinq şirkətində çalışmağa başladım. 2000-ci ildə bu şirkətin Bakıda bir nümayəndəliyini açdım. Amma mənim keçmişim otelçi olduğuna görə, Azərbaycandakı müştərilərimin böyük hissəsi otellər oldu. Mən bu otellər üçün konsaltinq, tanıtım və marketinq işləri görməyə başladım. Otellərin markalarının hazırlanması, təqdimatları və açılışlarında özüm bilavasitə iştirak etdim. Bu otellərdən biri də "Excelsior Hotel & Spa Baku"oteldir. Bu otelin açılışına qədər bir çox işləri, hətta açılışın təşkilini də özüm etdim. Keçən illərin sonunda bu oteldə bir yenilənməyə ehtiyac ortaya çıxdı və mənə burada çalışmaq təklif olundu və bu otellə birgə fəaliyyətimiz başladı, əvvəl konsaltinqlə başlayan bu fəaliyyət, sonra idarəçiliyin də mənə həvalə edilməsi ilə davam etdi.

**- Bildiyimiz kimi, baş meneceri olduğunuz "Excelsior Hotel&Spa Baku" oteli Bakı şəhərinin sayılıb-seçilən, lüks otellərindən biridir. Bu səviyyəyə çatmaq üçün, yəqin ki, çox çətinlikləriniz olub...**

-Bizim otelçilik dilində delüks adlandırılan bir otelin idarə olunmasında ən önəmli məsələ və ən böyük çətinlik 5 ulduz keyfiyyət standartlarını yaratmaq və daha çətin olanı o yaradılan standartları qorumaqdır. Bu işi yaxşı qurduğunuz zaman seçilən, istənilən otel ola bilirsiniz. Standartları yaratmaq asandır. Bu işin xırdalıqlarını bilməsəniz də, kitablarda var, internetdə var. Önəmli olan o standartları təkcə tapmaq və ya yaratmaq deyil. Əsas məsələ onları otelə uyğunlaşdırmaq və davamlılığını saxlamaqdır. Bu standartlar üçün yetişmiş işçilər tapmaqda hələ də çətinlik çəkirik. 10 il əvvəl ümumiyyətlə bu sahədə işçi tapılmırdı. İndi işçi var, hətta mən deyərdim, onların sayı həddindən artıq çoxdur, amma 5 ulduz səviyyəsində xidməti bacaran adamlar bir qədər azdır. Yeni açılan otelin minimum 200 nəfər işçiyə ehtiyacı var. Buna görə işçi tapmaqda davamlı rəqabət var. Amma bu adamların sayı getdikcə artır. Çünki "Excelsior Hotel & Spa Baku" oteli başda olmaqla, otellər treninqlərə, o cümlədən praktikantlara ciddi yer ayırırlar. Gördüyünüz kimi, oteldə prakikantlar var və onlar bizim burda istədiyimiz, arzu etdiyimiz 5 ulduz keyfiyyətini birbaşa görərək, iş başında öyrənirlər. Hazırda bir çox otellər də bizim kimi işçiləri özləri yetişdirməyə başlayır. Bunların sayı artdıqca otellər işçiləri daha çox seçə biləcək. Bu gün üçün isə çətinlik müasir keyfiyyət standartlarını öyrənmiş işçilərin azlığıdır.

**- Bu gün "Excelsior Hotel & Spa Baku" Sizin görmək istədiyiniz oteldirmi? Burada qonaqlara göstərilən xidmətin səviyyəsi yüksəkdirmi?**

- Razıyam. Hazırda otelimiz bütün qonaqlara yüksək səviyyədə xidmət edir. Bizim işimizdə hər zaman daha yuxarıya təkmilləşmə olmalıdır. Qonağa necə xidmət göstərə bilərik ki, bizdən ayrıla bilməsin. Bunu bacarmaq üçün hər gün bunun üzərində işləyirik. Biz hər gün səhər 09:00-da departament başçıları ilə iclaslar keçiririk, keçən günü araşdırır, gələcək gün üçün nələr edə biləcəyimizdən danışırıq. Öz üzərimizdə hər gün, hər saat, hər dəqiqə işləyirik.

**- Milli valyutamızın dəyərdən düşməsi otelinizin işinə necə təsir göstərdi? Bu, özünü sizin qiymətlərdə büruzə verdimi?**

- Dünyadakı böhran Azərbaycanda öz əksini hərtərəfli, həm də fərqli bir şəkildə göstərdi. Azərbaycanlılar çox əziyyət çəkdilər, insanların alıcılıq qabiliyyəti azaldı. Amma otel kimi böyük miqdarlarda satınalma edən şirkətlər üçün Azərbaycanda qalxan qiymətlər çox böyük fərqlər yaratdı. Bir otelin ən böyük xərclərindən biri enerji daşıyıcılarına olan xərclərdir. Azərbaycanda enerji daşıyıcılarının qiymətləri - qaz və elektrik enerjisinin qiymətləri yüksəldi. Ən böyük xərcimiz bunlar olduğu üçün bu bizə çox mənfi təsir etdi, amma digər tərəfdən, bu dövrdə Azərbaycan manatının xarici valyutalar qarşısında qiymətinin aşağı enməyi bizə "altın yıl"ımızı, necə deyərlər, "qızıl il"imizi yaşatdı. Belə ki, Azərbaycan, xaricdən gəlmək istəyənlər üçün ucuz bir turizm məkanı oldu. Dövlətimizin keçən 10 il ərzində Azərbaycanın reklamına qoyduğu investisiyanın effekti ilə birləşəndə bura axın-axın turistlər gəlməyə başladı. 30-60% məşğulluq ilə işləyən otellər hazırda tələbata cavab verə bilmir, turistlərə "yerimiz yoxdur" deyir. Bu, çox yaxşı göstəricidir. İndi demək olar ki, may ayından oktyabra qədər otellər bayram vəziyyətindədir. Mən bu yaxınlarda Dubayda keçirilən "Ərəb turizm bazarı" sərgisində oldum. Sevindirici haldır ki, burada ən çox işləyən stend Azərbaycanın idi.

Qeyd edim ki, Azərbaycana turistlər ilk növbədə, ərəb ölkələrindən, MDB ölkələrindən, daha çox isə Rusiya və Ukraynadan gəlir.

**- Turhan bəy, hazırda Azərbaycanda, o cümlədən Bakıda otel biznesi yeni inkişaf mərhələsindədir, bu sahədə böyük rəqabət yaranıb. Bu şəraitdə "Excelsior Hotel& Spa Baku"nun tutduğu mövqe Sizi qane edirmi?**

- Keçən ilə qədər çox çətin idi, belə ki, Azərbaycanda otellərin sayı çox olsa da, bu otellərə tələb az idi. Bəzi otellər arasında çox nömrə sayı ilə fəaliyyət göstərənlər var idi. Onlar qiymətləri salmaqla, qonaqları cəlb edirdilər. İndi belə deyil. Artıq Azərbaycanda tələb təklifdən çoxdur. Amma bizim digər otellərdən bir fərqimiz var ki, digər otellərdə olmayan açıq və qapalı hovuzlar, fitnes, SPA mərkəzi, trenajor zalı, tennis kortu, parkinq və s. oteldə var və pulsuzdur. Başqa ölkələrdə bunların çoxu ödənişlidir.

Otelimizin daha bir üstün cəhətini qeyd etmək istəyirəm ki, otelimiz



şəhərin mərkəzindən 4 dəqiqəlik məsafədə yerləşir. Yuxarıda sadaladıqlarım rəqabətdə bizə bəzi üstünlüklər verir.

**- Qarşıdan yay mövsümü gəlir, digər tərəfdən də, İslam Həmrəyliyi Oyunlarına start verildi. Formula-1 yarışlarına isə sayılan günlər qalıb. "Excelsior Hotel& Spa Baku" qapılarını qonaqların üzünə geniş açmağa hazırdırmı? Bu tədbirlərdən n**ə gözləyirsi**niz?**

Bizim üçün iki önəmli tədbir var. Biri İslam Həmrəyliyi Oyunları və digəri Formula-1 yarışları. Xarici ölkələrdən Formula-1 yarışlarına gəlməyənlər bu yarışları mətbuat vasitəsilə izləyirdilər. Amma bu il Formula-1 ilə əlaqədar indidən otelə 48 ölkədən tələb var. Mən builki Formula yarışları zamanı otel sayının yetməyəcəyinə əminəm. May ayından başlayaraq Azərbaycan otellərində otaq satışı ilə bağlı problemin olacağına inanmıram. Keçən il də olmadı. Biz bu mövsümü məhsuldar keçirməyi planlaşdırırıq.

**- Turhan bəy, sizə işlərinizdə uğurlar diləyirəm, maraqlı və ətraflı müsahibəyə görə sağ olun.**

**Söhbəti apardı:**
**Yeganə MƏMMƏDOVA**

# Azərbaycanda strateji yol xəritələrinin gerçəkləşməsində ixrac potensialının təhlili və inkişaf perspektivləri

**(əvvəli ötən sayımızda)**

Azərbaycan Respublikasında dünyadakı qlobal böhran fonunda ixrac potensialının stimullaşdırılmasının əsas istiqamətlərindən biri vergiqoyma mexanizminin təkmilləşdirilməsidir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması istiqamətində apardığı məqsədyönlü siyasətə, vergi orqanları qarşısında qoyulan tələblərə və tapşırıqlara uyğun olaraq, ölkə 2013-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) "Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum"una üzv olub. O vaxtdan vergi məsələləri üzrə xarici ölkələrlə aparılan məlumat mübadiləsinin təkmilləşdirilməsi və beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində Vergilər Nazirliyi tərəfindən aparılan işlər artıq öz nəticələrini verməkdədir.

Hazırda ixracın stimullaşdırılması istiqamətində aparılan islahatların əsasını sahibkarlıq fəaliyyəti təşkil edir. Bu baxımdan məlumdur ki, son illərdə sahibkarlığın inkişafı və dəstəklənməsi istiqamətində bir sıra mühüm əhəmiyyətli normativ-hüquqi aktlar qəbul edilmişdir. Bunlara «Sahibkarlıq fəaliyyəti haqqında», «Kiçik sahibkarlığa dövlət köməyi haqqında», «Antiinhisar fəaliyyəti haqqında», «Haqsız rəqabət haqqında», «İnvestisiya fondaları haqqında», «Xarici investisiyaların qorunması haqqında», «Xüsusi iqtisadi zonalar haqqında», «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və digər bu qəbildən olan qanunları, eyni zamanda, iqtisadi tənzimlənməyə üstünlük verilməsi və dövlətin iqtisadiyyata müdaxiləsini minumuma endirmək məqsədilə «Sahibkarlarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında», «Sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında», «Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının təmin edilməsinə dair bəzi tədbirlər haqqında» və "Sahibkarlıq günü" haqqında Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamını misal göstərmək olar. Bunların nəticəsidir ki, orta və kiçik sahibkarlar tərəfindən 2016-cı ildə 28,8 milyard manatlıq məhsul istehsal edilmişdir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, sənaye məhsulunun 65,4%-i mədənçıxarma sektorunda, 28,5 %-i emal sektorunda, 5,3%-i elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8%-i isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Emal sektorunda isə qida məhsullarının istehsalı 4,1%, toxuculuq sənayesi məhsullarının istehsalı 2,6 dəfə, geyim istehsalı 39,1%, ağac emalı və ağacdan məmulatlar 23,1%, kağız və karton 7,3%, poliqrafiya məhsulları 1,7%, metallurgiya sənayə məhsullarının istehsalı 2,0%, hazır metal məmulatları 18,9%, kompüter və elektron məhsullar 10,6%, elektrik avadanlıqları 2,3 dəfə, avtomobil, qoşqu və yarımqoşqular 41,9%, mebel 10,7%, maşın və avadanlıqların quraşdırılması və təmir işləri 42,2% artmışdır.

Uzunmüddətli strateji yol xəritəsində göstərildiyi kimi, dövlət xarici iqtisadi əlaqələrin səmərəliyini yüksəltmək istiqamətində ilk əvvəl tənzimlənməni təkmilləşdirməli, burada, xüsusən, gömrük-tarif, vergi və qeyri-tarif inzibati mexanizm və metodlarından istifadə optimallığı artırılmalıdır. Qeyd olunanlara əsaslanaraq, ölkədə ixrac potensialını stimullaşdırmaq üçün, fikrimizcə, prioritet istiqamətlər aşağıdakıları əhatə etməlidir.

- xarici iqtisadi fəaliyyət sferasında yeni bazar təsisatlı institusional dəyişikliklərin aparılması, sahəvi normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- ixracyönümlü məhsul istehsal edən təşkilatın stimullaşdırılması;
- dövlətlərarası ticarət palataları təsisatlarının genişləndirilməsi, respublikanın ixrac potensiallı təşkilatının xaricdə nümayəndəliyinin açılması və fəaliyyətlərinin genişləndirilməsinə nail olunması;
- xarici iqtisadi əlaqələr sferasında informasiya xidmətlərinin, reklam işinin təşkili və təkmilliyinin və habelə marketinq fəaliyyətinin genişləndirilməsi;
- xarici partynorlarla istehsal kooperasiyası, xalq istehlakçı malları istehsalında, yüksək texnologiyalar sferasında və həmçinin konversiya istiqamətində əməkdaşlığın genişləndirilməsi.

Ümumiyyətlə, ixrac potensialının stimullaşdırılması, investisiyaların təşviqi ilə bağlı qəbul edilmiş qərarlarla investorlara vergi və gömrük güzəştlərinin verilməsi sahibkarlığın daha da inkişafına və xarici investisiyaların cəlb edilməsinə, qeyri-neft ixracının stimullaşdırılmasına səbəb olacaq, bununla da həm regionların, həm də ümumilikdə qeyri-neft sektorunun inkişafına güclü təkan verəcək. Belə ki, prioritet hesab olunan sahələrdə investisiya fəaliyyəti həyata keçirən sahibkarların investisiya təşviqi sənədini aldıqları andan idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumlarından azad olunur. Eyni zamanda, sahibkarlar investisiya təşviqi sənədinə əsasən, 7 il müddətinə fiziki şəxslərin gəlirinin və hüquqi şəxslərin mənfəətinin 50%-nə görə vergidən, həmçinin, əmlak və torpaq vergisindən, müvafiq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə ƏDV-dən azaddır. Eyni zamanda, potensial ixrac bazarları ölkələrində logistik mərkəzlərin yaradılması istiqamətində araşdırmalar aparılır, ixrac məlumat bazasının (elektron portal) yaradılması üçün işlər görülür. İxracda xüsusi önəm kəsb edən qablaşdırmanın əhəmiyyəti nəzərə alınaraq, bu sahədə təşkilatların yaradılması təşviq olunacaq, bu sahəyə dövlət dəstəyi daha da gücləndiriləcəkdir.

2014-cü il ərzində Azərbaycan Respublikasının rezident və qeyri-rezidentləri tərəfindən dünyanın 150 ölkəsi ilə 31016.7 milyon ABŞ dolları həcmində ticarət əməliyyatları aparılmışdır. Xarici ticarət dövriyyəsinin 70,4 % və ya 21828.6 milyon ABŞ dolları həcmində hissəsini ixrac, 29,6 % və ya 9188.1 milyon ABŞ dolları həcmində hissəsini idxal olunan mallar təşkil etmiş, ixrac-idxalı örtmə əmsalı 2,38 olmuşdur. Bu dövrdə 6142 adda mal idxal, 2151 adda mal ixrac olunmuş, gömrük orqanlarında, ümumilikdə, 261617 ədəd, o cümlədən 219004 ədəd idxal, 42613 ədəd ixrac gömrük bəyannaməsi rəsmiləşdirilmişdir. 2013-cü ilə nisbətən rəsmiləşdirilmiş gömrük



bəyannamələrinin sayı 35141 ədəd və ya 11,8% (ixrac bəyannamələri 448 ədəd və ya 1,0%, idxal bəyannamələri 34693 ədəd və ya 13,7%) azalmışdır.

Ümumiyyətlə, 2014-cü ildə ixrac olunan malların 22,0% İtaliya, 9,2% İndoneziya, 8,8% Almaniya, 8,1% İsrail, 7,0% Fransa, 3,8% Tailand, 3,6% İspaniya dövlətlərinə göndərilmişdir. İdxal əməliyyatlarında isə Rusiya (14,3%), Türkiyə (14,0%), Böyük Britaniya (10,6%), Almaniya (7,7%), Çin (7,6%), Amerika Birləşmiş Ştatları (6,1%) Azərbaycan Respublikasının əsas ticarət tərəfdaşları olmuşdur. 2015-ci ildə ölkənin hüquqi və fiziki şəxsləri 165 xarici dövlətlə ticarət əməliyyatları həyata keçirib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 109 ölkəyə məhsul ixrac olunub, 145 ölkədən idxal həyata keçirilib. 18815,4 milyon dollar məbləğində ticarət, o cümlədən 10619,2 milyon dollarlıq ixrac və 8196,2 milyon dollarlıq idxal əməliyyatları aparılıb. Nəticədə, 2423,0 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2014-cü ilə nisbətən məhsul mübadiləsinin dəyəri müqayisəli qiymətlərlə 4,1% azalıb. Ticarət dövriyyəsinin 16553,9 milyon dolları və ya 88,0%-i MDB üzvü dövlətləri istisna olmaqla digər ölkələrin, 2261,5 milyon dolları, yaxud 12,0%-i MDB üzvü dövlətlərinin payına düşüb. Bu ölkə qrupları üzrə ticarət dövriyyəsinin fiziki həcmi müvafiq olaraq 1,7% və 12,5% azalıb. Dövriyyənin 8892,5 milyon dollarlıq hissəsi və ya 47,3%-i Avropa İttifaqı ölkələri ilə ticarət əlaqələri sayəsində yaranıb.

MDB üzvü dövlətləri istisna olmaqla digər ölkələrə ixrac olunan məhsulların dəyəri müqayisəli qiymətlərlə 2,7% azalıb. Bu ölkələrə 10151,7 milyon dollar həcmində məhsul göndərilib. MDB üzvü dövlətlərinə ixrac olunan məhsulların həcmi 33,6% azalaraq 467,5 milyon dollar təşkil edib. İxracın ümumi həcminin 4,4%-i MDB, 59,7%-i Avropa İttifaqı ölkələrinin, 35,9%-i isə digər ölkələrin payına düşüb. 2015-ci ildə ölkəyə idxal olunan 6402,2 milyon dollarlıq məhsul MDB üzvü dövlətləri istisna olmaqla digər ölkələrdən daxil olub. İdxalın ümumi həcminin 21,9%-i MDB üzvü dövlətlərinin, 31,2%-i Avropa İttifaqı ölkələrinin, 46,9%-i isə digər ölkələrin hesabına formalaşıb. Xarici ticarət dövriyyəsinin 83,4%-i İtaliya, Almaniya, Rusiya, Türkiyə, ABŞ, Fransa, İsrail, Çexiya, Avstriya, Yaponiya, Çin, İndoneziya, Birləşmiş Krallıq, Gürcüstan, İspaniya, Portuqaliya, Ukrayna, Tunis, Hindistan, Kanada və Tailand dövlətlərinin hesabına formalaşıb.

İxrac olunmuş şəkər və çay məhsulları 20,3% İtaliyaya, 11,2% Almaniyaya, 7,3% Fransaya, 6,5% İsrailə, 4,6% Çexiyaya, 4,5% İndoneziyaya, 3,8% Avstriyaya, 3,5% Rusiyaya, 3,2% Gürcüstana, 3,1% ABŞ-a, 3,0% İspaniyaya, 2,9%Portuqaliyaya, 2,6% Türkiyəyə, 2,5% Tunisə, hər birində 2,1% olmaqla Kanada və Hindistana, 2,0%Tailanda, 1,8% Əfqanıstana, hər birində 1,6% olmaqla Xorvatiya və İraqa, qalan 9,8% isə digər ölkələrə göndərilib. 2014-cü illə müqayisədə 2015-ci ildə təzə meyvə ixracı 9,6%, təzə tərəvəz 4,2%, marqarin, qida üçün yararlı digər qarışıqlar 11,1%, polietilen 2,4%, emal olunmamış alüminium 5,7%, qara metallardan yarımfabrikatlar 3,7 dəfə, pambıq parça ipliyi 14,5%, pambıq lifi 11,7 dəfə artıb.

2016-cı ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 174 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 103 ölkəyə məhsul ixrac olunmuş, 168 ölkədən idxal olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2016-cı ildə xarici ticarət dövriyyəsi 15 milyard 781,3 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 9 milyard 579,8 milyon dollar, idxalın dəyəri 6 milyard 201,5 milyon dollar təşkil etmiş, nəticədə 3 milyard 378,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

Strateji yol xəritəsinin əsas məqsədlərindən biri də dünya ərzaq və kənd təsərrüfatı bazarının ekoloji cəhətdən təmiz məhsul ixracını maksimum artırmaqdır. Buna əsasən, 2016-ci ildə ixrac dövriyyəsinin 38,3%-i Avropa İttifaqı ölkələrinin, 12,1%-i MDB üzvü dövlətlərinin, 49,6%-i isə dünyanın digər ölkələrinin payına düşmüşdür.

İxrac edilmiş məhsulların ümumi dəyərində ərzaq məhsulları, meyvə-tərəvəz, şəkər, mineral məhsullar, diri heyvanlar və heyvan mənşəli məhsullar, bitki mənşəli məhsullar, heyvan və ya bitki mənşəli piylər və yağlar, xam neft, təbii qaz, neft məhsulları, plastik kütlə, kimya sənayesi məhsulları, pambıq ipliyi və bitki yağlarının, maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar, plastik kütlə və ondan hazırlanan məmulatlar, oduncaq və ondan hazırlanan məmulatlar, emal olunmamış gön, təbii xəz onlardan hazırlanan məmulatlar, oduncaqdan kütlə, kağız və karton və onlardan hazırlanan məmulatlar, azqiymətli materiallar və onlardan məmulatların xüsusi çəkisi üstünlük təşkil etmişdir.

Ümumiyyətlə, ölkə başçısının həyata keçirdiyi iqtisadi strategiya nəticəsində respublikada mal qrupları üzrə, ixracın dinamikasında nəzərə çarpacaq dərəcədə dəyişiklik yaranmışdır (bu göstəricilərlə bağlı www.iqtisadiyyat.com saytında geniş şəkildə cədvəl verilmişdir).

Mal qruplarının dinamikasının təhlili göstərir ki, 2010-cu illə müqayisədə 2015-ci ildə ixracın 935,7 (21360,2-11424,5) ABŞ dolları azaldığına baxmayaraq, digər mal qrupları üzrə - diri heyvanlar və heyvan mənşəlli məhsullar 1,8 (2,3-0,5), bitki mənşəlli məhsullar 145,6 (335,9-190,3), hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün 64,7 (278,9-214,2), kimya sənaye məhsulları 32,1 (80,0-47,9), plastik kütlələr, kauçuk, rezin və onlardan hazırlanan məmulatlar 28,3 (113,0-84,7), emal olunmamış gön, aşılanmış dəri, təbii xəz, onlardan hazır məmulatlar 0,4 (12,2-11,8), mirvari, qiymətli daşlar və materiallar, onlardan hazırlanan məmulatlar 0,5 (83,2-82,7), maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparaturlar 20,9 (59,5-38,6) və optika, fotoqrafik, ölçü, nəzarət, tibbi alət və aparatlar, saatlar, musiqi alətləri ürə 10,6 (17,6-7,0) ABŞ dolları artmışdır. Göründüyü kimi, iqtisadi islahatlar zəminində ixrac potensialının stimullaşdırılması ilə bağlı respublikada görülən tədbirlər öz müsbət nəticəsini vermişdir. Digər mal qrupları üzrə təhlilin nəticəsindən göründüyü kimi, bu dövrdə azalmalar isə bazar və xarici alıcılardan asılı olmuşdur.

**Mənbə: Müstəqil Azərbaycan-25. Bakı. 2016, səh. 542**

Ümumiyyətlə, ölkədə ixracın coğrafi quruluşunda nəzərə çarpacaq dərəcədə dəyişiklik olmuşdur. Belə ki, ixracın genişləndirilməsi, Azərbaycanda istehsal olunan mal və məhsulların keyfiyyətinin Avropa standartlarına çatdırılması da vacib məsələlərdən biridir. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bu məqsədlə indiyədək 100-dən çox milli standartı Avropa standartına uyğunlaşdırıb. Məqsəd ölkədəki bütün keyfiyyət standartlarının, eləcə də sovet dövründə qəbul edilmiş «QOST» standartlarının mərhələli şəkildə Avropa standartlarına uyğunlaşdırılmasıdır.

Özəl sektorun ixrac potensialının möhkəmlənməsinə AZPROMO - İxracın və İnvestisiyaların Təşviqi Fondu da yaxından dəstək verir. Bu da ixrac potensialının inkişafına şərait yaratmış olur.

Qeyri-neft sektorunda ixrac potensialının əsası olan meyvə şirələri və nar şirəsi dünya bazarı üçün maraqlıdır. Hazırda dünya bazarında nar şirələrinə, fındığa tələbat təklifdən çoxdur. Yaxın zamanlarda yaradılacaq Meyvə Şirələri İstehsalçıları Alyansında ilk olaraq 7, Fındıq və Qoz Məhsulları İstehsalçıları Alyansında isə 4 şirkət təmsil olunacaq. Gələcəkdə bu şirkətlərin sayının artacağı da gözlənilir. Alyanslar tərəfindən Azərbaycanın fındıq, qoz məhsulları və meyvə şirələrinin daxili və xarici ölkələrdə təqdimatının keçirilməsi, habelə yerli bazarda təşviqinin aparılması nəzərdə tutulur.

Göründüyü kimi, hazırda Azərbaycan Respublikasında ixrac potensialı olan bir çox məhsullar mövcuddur. Məhsulun növündən (çeşidindən) və təyinatından asılı olaraq stimullaşdırma strateji yol xəritəsində nəzərdə tutulmuş yeni gömrük rüsumu və vergi (ƏDV, aksiz və s.) amillərindən çox asılıdır. Ümumilikdə, düşünürük ki, gələcəkdə Avropa, Asiya, Amerika, Atlantika və Okean regionları tərəfdaş ölkələrinə ixrac potensialının stimullaşdırılması ölkənin valyuta gəlirlərinin çoxlamasına, iqtisadiyyatın ümumi inkişaf tempinin sürətlənməsinə və əhalinin həyat səviyyəsinin və rifahının yüksəlməsinə gətirib çıxaracaqdır. İxrac potensialının stimullaşdırılması üçün aşağıdakı təklifləri edirik:

1.İxracatçının xarici bazara çıxışını təmin etmək
2. Səmərli ixracat qiymətləri müəyyən etmək
3.İxrac müqavilələrini təkmilləşdirmək
4.İxrac əməliyyatarı üçün sənəd dövriyyəsini sadələşdirmək
5.İxrac potensialını artırmaq
6. İxracatda marketinq dəstəyini təmin etmək
7. İxrac xidmətlərini yaxşılaşdırmaq
8. İxracatın stimullaşdırılması üçün normativ hüquqi bazanı təkmilləşdirmək
9.Səmərəli gömrük-tarif rejimi yaratmaq
10.Azərbaycanda idxal-ixrac bankının yaradılmasına şərait yaratmaq
11.İxrac məhsullarının xarici bazar tələbatına uyğunlaşdırılması
12.İxrac məhsullarının ümumidaxili məhsulda xüsusi çəkisini artırmaq
13. İxrac məlumat bazasının (elektron portal) formalaşdırılmasını təmin etmək
14. Lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi
15. Logistik mərkəzlər yaratmaq
16. Azərbaycanda ixrac assosiasiyaları yaratmaq.

**Hacıyev Fazil Şöhlət oğlu,**
**Azərbaycan Dövlət İqtisad Universiteti, i.e.d. prof**
**"Mühasibat uçotu və audit" kafedrası**

# Azərbaycan dünyanın 37 ölkəsində keçirilən startap proqramına qoşulur

Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi daha bir beynəlxalq layihəyə öz töhfəsini verir. Mərkəz bu dəfə 37 ölkənin iştirak etdiyi dünyanın ən böyük "green" biznes ideya müsabiqəsi olan ClimateLaunchpad layihəsinin "Bürünc sponsor"u qismində çıxış edir. Azərbaycanın ilk dəfə qatıldığı bu layihə özünün öyrədici strukturuna və əhatəsinin genişliyinə görə proqrama qəbul olunan startaplara və ideya müəlliflərinə çox böyük proqress xətti təklif edir.

May ayından etibarən avqust ayında keçiriləcək ölkə finalına hazırlıq məqsədilə Azərbaycandan seçilən 14 komandaya intensiv təlim proqramları təşkil edilib. Təlim proqramları "ClimateLaunchpad" mərkəzi komandasının üzvü, Hollandiyadan ölkəmizə proqram təşkilatçıları tərəfindən göndərilmiş startap və innovativ texnologiyalar sahəsi üzrə ekspert Hans Westerhof və lokal təlimçilər tərəfindən keçirilir. Burada komandalar yerli ekspertlər tərəfindən ClimateLaunchpad-in müəyyən etdiyi vacib biznes konseptləri üzərində praktiki işləyəcək və özlərini ölkə finalına hazırlayacaqlar. Ölkədaxili koçinq sessiyalarından sonra komandalar ClimateLaunchpad-in də təmsilçisinin də iştirak edəcəyi münsiflər qarşısında ilk 3 yeri qazanmaq və Grand Finale-a vəsiqə əldə etmək üçün təqdimatlar edəcəklər.

Ümumilikdə, 37 ölkənin hər birinin ölkə finalında ilk 3 yerə çıxan komandalar 2017-ci ilin oktyabr ayında keçiriləcək Grand Finale-a vəsiqə qazanacaqlar və Avropanın qabaqcıl investorları və sahibkarları qarşısında təqdimat edəcəklər. Grand Finale-da ilk 10 yeri tutan startup layihələri kiçik ideyaların böyük bizneslərə çevrildiyi 18 aylıq "Climate-KIC Accelerator" proqramına qəbul olacaqlar. Bu akselerator proqramında hər bir layihəyə üç mərhələdə € 95,000 avro maliyyə dəstəyi verilir.

Bundan əlavə isə, Grand Finale-da ilk 3 yerə çıxan komandalar pul mükafatları qazanacaqlar:
– Birinci yer: € 10,000 avro
– İkinci yer: € 5,000 avro
– Üçüncü yer: € 2,500 avro

Onu da qeyd edək ki, bu ilin qalib ölkəsi növbəti il Grand Finale-a ev sahibliyi edəcək.

# Bakcell xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstəyini davam etdirir

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti Azərbaycana Birgə Yardım (UAFA) təşkilatı ilə əməkdaşlıq çərçivəsində həyata keçirdiyi "İncəsənət Vasitəsilə Ünsiyyət" layihəsini bu il də davam etdirir. Bu il layihə müddətində 114-dən çox uşaq dərnəklərdə yeni bacarıqlar qazanacaq, bu bacarıqlarını müxtəlif tədbirlərdə nümayiş etdiməklə həm özləri sevinəcək, həm də izləyənlərini sevindirəcəklər.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların həyatında xoş və yaddaqalan dəyişikliklər yaradan bu layihə çərçivəsində "UAFA"nın Gəncə, Xaçmaz, Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) mərkəzlərində indiyədək yüzlərlə uşaq yeni bacarıqlara yiyələnib, bir çox respublika və beynəlxalq səviyyəli yarışlarda qalib olublar. Hər dəfə övladlarının dərnəklərdə qazandığı bacarıq və nailiyyətləri görən valideynlərin isə sevinci hədsizdir. "Mən övladımın yeni nailiyyətlərinin, həyatının müsbətə doğru dəyişdiyinin şahidi olduqca çox sevinirəm. Artıq o, cəmiyyətin fəal üzvünə çevrilib". Bu sözləri valideynlərdən biri rəqs dərnəyindən bəhrələnən övladı haqda söyləyir.

"Sosial məsuliyyətli mobil operator olaraq uşaqlara dəstək olmağımıza imkan yaratdıqları üçün ilk növbədə onların valideynlərinə təşəkkürümüzü bildirir, onların etibarını doğrultmaq üçün daim əlimizdən gələni etməyi özümüzə borc bilirik. UAFA-nın təşkilatçılığı ilə dəstəklədiyimiz bu layihə sayəsində uşaqlar üçün əlavə imkanlar yaradılır və onlar gələcəyə doğru daha inamla irəliləyir, özlərini cəmiyyətin ayrılmaz hissəsi kimi hiss edirlər. Ümidvarıq ki, layihə ötən illərdə olduğu kimi, bu il də çox uğurlu olacaq", - deyə Bakcell şirkətinin baş icraçı direktoru cənab Nikolai Bekers bildirib.

UAFA təşkilatının direktoru Qven Börçell Bakcell–UAFA əməkdaşlığı nəticəsində bu uşaqların dayanıqlı xidmətlərlə təmin olunduqlarını və artıq öz uğurları ilə milli səviyyədə diqqət qazandıqlarını bildirir: "Məqsədimiz əlilliyi olan gənc insanların aktivliyini təmin etmək, onlar üçün bərabər hüquq və imkanlar yaradılmasına dəstək verməkdir. Birgə layihəmiz cəmiyyətə xüsusi qayğıya ehtiyacı olan uşaqları daha yaxından tanıma və onları anlama imkanı yaradır".

Zahid Məmmədov - 70

# ELMİ-PEDAQOJİ TƏRƏQQİYƏ HƏSR EDİLƏN ÖMÜR



***Bu, bir həqiqətdir ki, cəmiyyətin inkişafına alimlərin verdiyi töhfə əvəzedilməzdir. Alim olmaq, əsl elmə yiyələnmək çox da asan olmayıb, yuxusuz gecələrə qatlaşmaq, qarşıya çıxan maneələrə sinə gərmək, dünyəvi elmlərə yiyələnmək və bütün həyatını elmə sərf etmək insan ömrünün ən mənalı, şərəfli və qürurlu anlarıdır. Həmin çətin, kəşməkəşli yolları keçən, bütün həyatını elmə sərf edən və dünyanın fundamental elmləri sırasına daxil olan coğrafiya elmləri sahəsində uzun illər tədqiqat aparan, özünəməxsus elmi yaradıcılığı olan şəxslərdən biri də alim-pedaqoq Zahid Səttar oğlu Məmmədovdur.*** O, görkəmli alim və kamil pedaqoq kimi tanınır.

Böyük Baharlılar nəslinin nümayəndəsi olan Zahid Səttar oğlu Məmmədov 1947-ci il may ayının 22-də anadan olmuş, 1966-cı ildə Mincivan dəmir yolu orta məktəbini bitirmişdir. Elə həmin ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya və biologiya fakültəsinə daxil olub, 1970-ci ildə isə həmin fakültəni bitirib coğrafiya ixtisasına yiyələnmişdir. 1970-1972-ci illərdə Respublika Təhsil Nazirliyinin təyinatı əsasında Sabirabad şəhər orta məktəbində müəllim işləmişdir. O, müəllim işlədiyi illərdə mətbuat səhifələrində öz məqalələri ilə çıxış edirdi. Zahid Məmmədovun elmə olan həvəsi onun Azərbaycan Elmlər Akademiyasının akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutuna gəlməsinə səbəb olur. 1972-ci ilin sentyabr ayından Zahid Məmmədovun elmi yaradıcılığının ilk günləri Coğrafiya İnstitutundan başlayır. Görkəmli alimlərin əsərlərini mütaliə edən və özünün iqtisadi coğrafi biliyini zənginləşdirən Zahid müəllim 1973-cü ildə akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda İqtisadi Coğrafiya ixtisası üzrə əyani aspiranturaya daxil olur. Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun elmi şurasında "Naxçıvan MSSR-in maddi istehsalının və nəqliyyat iqtisadi əlaqələrinin inkişafının iqtisadi-coğrafi problemləri" adlı dissertasiya mövzusu təsdiq olunur. Elmi rəhbəri mərhum iqtisad elmləri doktoru, professor Balaca Əbdürrəhmənovun qayğıkeşliyi nəticəsində o, 1980-ci ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, coğrafiya elmləri namizədi alimlik dərəcəsi alır. Zahid müəllimin bundan sonra yaradıcılığının ən parlaq dövrü başlayır. Xüsusilə, onun gənc yaşlarında akademik Həsən Əliyev, akademik Budaq Budaqov, akademik Asəf Nadirov, akademik Ziyad Səmədzadə, Azərbaycan MEA-nın müxbir üzvləri Ənvər Şıxlinski, Əli Nuriyev, iqtisad elmləri doktoru, professor Balaca Əbdürrəhmənov və iqtisad elmləri doktoru, professor Kamal Tağıyev, coğrafiya elmləri doktoru, professor Balacaxanım Nəzirova kimi görkəmli alimlərin əhatəsində olmasını və həmin alimlərlə elmi məsləhətləşmələrini gənc alim Zahid Məmmədovun elmi dünyagörüşünün formalaşmasına və elmi potensialının yüksəlməsinə təsir göstərən müsbət amil kimi qiymətləndirmək olar. Akademik Həsən Əliyev məktəbinin yetirməsi olan gənc alim Zahid Məmmədov Azərbaycan alimləri ilə yanaşı, keçmiş SSRİ-nin nəqliyyat problemləri ilə məşğul olan görkəmli iqtisadçı, iqtisadi coğrafiyaçı alimlərindən professor İ.V.Nikolçki, A.T.Xruşşov, Ç.M.Lappo, İ.P.Alampiyev və s. alimlərlə yaxınlıq etmiş və elmi məsləhətlər almışdır. Zahid müəllim müstəqil elmi-tədqiqatında "Böyük Qafqazın sosial-iqtisadi inkişaf problemləri"nə dair hesabat işlərində "Şəki-Zaqatala", "Quba-Xaçmaz", "Dağlıq Şirvan" iqtisadi rayonlarının nəqliyyat sistemlərinin təkmilləşdirilməsi problemləri, "Naxçıvan MSSR-in nəqliyyat iqtisadi əlaqələrinin səmərələşdirilməsi","Gəncə-Qazax" iqtisadi rayonuna dair aparılmış tədqiqat işində nəqliyyatın səmərəliliyi bölməsini yerinə yetirmişdir. Həmçinin, Coğrafiya İnstitutunda dərc olunmuş "Azərbaycanın konstruktiv coğrafiyası", "Böyük Qafqazın təbii resursları" adlı monoqrafiyaların müəlliflərindən biridir.

Gənc alim Zahid müəllimin elmi yaradıcılığının ikinci dövrü Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan bu günədək olan dövrü əhatə edir. Azərbaycanın müstəqilliyi onun dünya inteqrasiyasına qoşulması üçün əlverişli şərait yaratdı. Zahid müəllim yeni iqtisadi şəraitdə ölkəmizin nəqliyyat iqtisadi əlaqələrinin müasir problemlərinin tədqiq olunmasının ölkə iqtisadiyyatı üçün önəmli olduğunu dərk edərək 1992-ci ildən "Azərbaycan Respublikasının nəqliyyat və nəqliyyat iqtisadi əlaqələrinin inkişafının iqtisadi coğrafi problemləri" doktorluq dissertasiyası üzərində işləyir və 1996-cı ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, coğrafiya elmləri doktoru alimlik dərəcəsini, 2005-ci ildə professor elmi adını alır. Professor Zahid Məmmədovun Azərbaycanın nəqliyyat sektoruna dair yazdığı fundamental monoqrafiyaları Azərbaycan elminə böyük töhfələr vermiş və verməkdədir. Avropa İttifaqı Birliyi tərəfindən həyata keçirilən TASİS və TRASEKA proqramlarının Azərbaycan iqtisadiyyatına və nəqliyyat sisteminə göstərəcəyi təsir mexanizmi ilk olaraq professor Zahiz Məmmədovun elmi tədqiqatlarında əsaslandırılmışdır (TASİS və TRASEKA proqramlarının koordinatoru Azərbaycanda akademik Z.Ə.Səmədzadə olmuşdur). Eyni zamanda, professor Zahid Məmmədovun elmi araşdırmalarında Azərbaycanın nəqliyyat sisteminin Avrasiya məkanında mərkəzi mövqe tutması, nəqliyyatın spesifik xüsusiyyətləri və rəqabətə davamlılığı uzaqgörənliklə təhlil olunmuş, bir sıra beynəlxalq əhəmiyyətli layihələrdə: Avropa – Qafqaz – Asiya, Trans Qafqaz, Trans Xəzər, Şərq – Qərb, Şimal – Cənub, qədim "İpək Yolu"nun bərpası, Bakı – Tbilisi – Qars dəmir yolu, Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Qars ixrac boru kəməri layihələrində öz yerini tapmışdır. Onun yazdığı fundamental əsərlərdə irəli sürülən elmi ideyalar respublika nəqliyyat sisteminə tətbiq edilərək, istər qlobal, istərsə də regional səviyyədə nəqliyyat iqtisadi əlaqələrinin intensiv inkişafına təsir göstərmişdir. Onun yaradıcılığına diqqət yetirdikdə 6 monoqrafiya, 3 dərslik, çoxsaylı proqram və metodik vəsaitlər və 160-dan çox məqalənin müəllifi olduğu aydın görünür. Professor Z.S.Məmmədovun elmi tədqiqatları əsasında yazdığı fundamental əsərlər siyahısında "XXI əsr: İqtisadi inkişafın nəqliyyat faktoru", Bakı, 2002, "Regionların iqtisadi inkişaf problemləri", Bakı, 2007, "Naxçıvan təbii sərvətləri" Bakı, 1993, "Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri", Bakı, 2004, "Azərbaycan Respublikasının region ölkələrinə inteqrasiyası" Bakı , 2015, "Təbiətdən istifadənin iqtisadiyyatı" Bakı, 2010 və s. əsərləri hər bir elm adamının stolüstü kitabı olmaqla, ölkəmizin iqtisadiyyatına, xüsusilə, nəqliyyat sektoruna töhfələr verən qiymətli əsərlər hesab edilir.

Professor Z.Məmmədovun elmi fəaliyyətinin mühüm bir tərəfi elmi pedaqoji fəaliyyətdir. Hələ gənc yaşlarında Zahid müəllim Azərbaycan MEA Coğrafiya İnstitutunda işlədiyi vaxtda respublikamızın bir çox ali məktəblərində iqtisadi və sosial coğrafiyanın müasir problemlərinə dair tələblər və ixtisaslı müəllim kollektivi qarşısında mühazirələr oxumuşdur.

Professor Z.Məmmədov 1994-cü ildən elmi-pedaqoji fəaliyyətini Azərbaycan Kooperasiya Universitetində davam etdirir. Universitetdə on beş ildən artıqdır ki, "Ekologiya və Coğrafiya" kafedrasına rəhbərlik edir. Kooperasiya Universitetində işlədiyi vaxtdan bu günədək ekologiya və coğrafiya ixtisası üzrə bakalavr və magistr səviyyəsində ixtisaslı kadrların hazırlanmasında var gücü ilə çalışır. Bu cəhətdən rəhbərlik etdiyi kafedranın proqram təminatı yüksək səviyyədədir. İşlədiyi kafedranın universitetin elmi tədqiqat iş planına uyğun olaraq regional səviyyədə müxtəlif istiqamətli mövzuları yerinə yetirməklə fəaliyyət göstərməsini təmin etməklə bərabər, kafedranın dərsliklərlə təmin olunmasını diqqət mərkəzinə yönəldir. Professor Zahid Məmmədovun bakalavrlar üçün yazdığı dərsliklər: "Azərbaycanın xarici iqtisadi əlaqələri", Bakı, 2004, "Təbiətdən istifadənin iqtisdaiyyatı", Bakı, 2010, "Azərbaycanın iqtisadi və sosial coğrafiyası" (müştərək) dərslik, Bakı, 2010 tələbələr tərəfindən maraqla oxunur. Zahid müəllim Azərbaycan Kooperasiya Universitetində istər ekologiya və coğrafiya ixtisasları üzrə, istərsə də iqtisad fakültələrində oxuyan tələbələrin yüksək səviyyədə biliklərə malik olduqlarını qeyd edir. Onun rəhbərlik etdiyi kafedranın müəllimləri mühazirə və məşğələləri təlimin müasir metodlarından və texniki avadanlıqlardan istifadə etməklə yüksək səviyyədə həyata keçirirlər.

*"Elm Çində də olsa, onun dalınca gedin".*

*Həzrəti Muhəmməd (s.ə.s)*

Zahid müəllim elmdə öz sözünü demiş və fundamental əsərləri ilə elmdə özünü təsdiq etmiş alim və pedaqoqdur. Professor Zahiz Məmmədov istər respublika, istərsə də beynəlxalq miqyasda keçirilmiş konfrans və simpoziumlarda doğma Azərbaycanımızı ləyaqətlə təmsil edərək öz elmi çıxışları ilə hörmət qazanmışdır. Respublikadan kənarda Rusiya Federasiyası, Qazaxıstan, Gürcüstan, İran İslam Pespublikası (Təbriz şəhəri, 1993) və s. ölkələrdə keçirilmiş konfranslarda etdiyi çıxışlar alimə hörmət qazandırmışdır.

Pofessor Zahid Məmmədov gənc yaşlarında doktorluq dissertasiya işini müdafiə etdiyindən, çoxsaylı dissertasiyaların müdafiə şurasının üzvü olmuşdur. O, 20 ildən çoxdur ki, Azərbaycan MEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda, 10 il Azərbaycan MEA İqtisadiyyat İnstitutunda, 6 il müddətində Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən dissertasiyaların müdafiə şuralarının üzvü olmuşdur. Həmçinin, Azərbaycan Kooperasiya Universitetində elmi şuranın və elmi metodik şuranın üzvü olmaqla fəaliyyət göstərir. Eyni zamanda, son zamanlar Bakı Dövlət Universiteti və Azərbaycan Kooperasiya Universiteti nəzdində yaradılmış müdafiə şurasının üzvü seçilmişdir. Pofessor Zahid Məmmədovun üzvü olduğu dissertasiyaların müdafiə şuralarında dissertantlara, doktorantlara müdafiə zamanı qayğıkeşliklə etdiyi çıxışlar hər bir iddiaçının ürəyincə olmaqla onlara böyük uğur gətirmişdir. Bu da alimin qayğıkeş, ziyalı, ədalətli və obyektiv alim-pedaqoq olmağından irəli gəlir. Bu səbəbdən də o, müxtəlif illərdə müdafiəyə təqdim olunmuş çoxsaylı iqtisadi və iqtisadi coğrafi sahədə, istər fəlsəfə doktoru, istərsə də elmlər doktorluq dissertasiyalarının opponentləri olmuş və onlar müvəffəqiyyətlə müdafiə edərək iddiasında olduqları elmi adları almağa nail olmuşlar.

Akademik Ziyad Səmədzadənin ideya müəllifi və baş redaktoru olduğu 7 cildlik Böyük İqtisadi Ensiklopediyanın redaksiya heyətinin üzvlərindən biri olmaqla, respublikamızın tanınmış digər alimləri və dövlət xadimləri kimi Zahid müəllim haqqında da biblioqrafik məlumat verilir. Həmçinin, "Azərbaycanın nəqliyyat qovşaqları" adlı elmi məqaləsi "Böyük İqtisadi Ensiklopediya" I cilddə, (Bakı, 2012) dərc olunmuşdur. Zahid müəllim akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda fəaliyyət göstərən "Coğrafiya" cəmiyyətinin üzvüdür. "Qızıl qələm "mükafatı laureatıdır.

Hörmətli Zahid müəllim, Sizi 70 illik yubileyiniz və elmi-pedaqoji fəaliyyətinizin 45 illiyi münasibətilə təbrik edir, Sizə həyatda möhkəm can sağlığı, elmi-pedaqoji fəaliyyətinizdə bundan sonra da müvəffəqiyyətlərə nail olmağınızı arzu edirik.

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**

## LG Flex 2 telefonu ayda cəmi 45 AZN-ə




Azercell Telekom MMC abunəçiləri üçün daha bir sərfəli kampaniyaya başlayıb. 11 may 2017-ci il tarixindən etibarən Azercell abunəçiləri 1001 Smartfon kampaniyası çərçivəsində LG Flex 2 telefonunu və əlavə olaraq, LG qol saatını hədiyyə olaraq əldə edə bilərlər. Ayda cəmi 45 AZN ödəməklə abunəçilər 4G dəstəkləyən smartfonları, hər ay 5GB internet hədiyyə və ölkə daxilində sərfəli zəng etmək (1 dəq=0.06 AZN) imkanı qazanacaqlar. Kampaniyaya qoşulmaq üçün, abunəçilər Azercell Müştəri Xidmətləri Ofislərinə yaxınlaşıb, mövcud təkliflərdən birini seçə bilərlər.

Qeyd edək ki, Azercell 1001 Smartfon kampaniyası çərçivəsində güzəştli təkliflərini yay boyunca davam etdirəcək.

## Azercell "Socially devoted" sertifikatına layiq görülüb

Azercell Telekom MMC uğurları sırasına daha birini əlavə edib. Azercell-in sosial şəbəkədəki aktivliyi "Socialbakers" şirkəti tərəfindən yenidən dəyərləndirilib və şirkət "Socially devoted" sertifikatına layiq görülüb. "Socialbakers" şirkətinin apardığı araşdırma göstərib ki, 2017-ci ilin yanvar-fevral-mart aylarında Azercell şirkəti rəsmi Facebook səhifəsində istifadəçilərin verdiyi sualların 100%-ni cavablandırıb. Azərbaycanda mobil operatorlar arasında yalnız Azercell bu uğura imza atıb. 2012-ci ildən indiyə qədər Azercell Facebook səhifəsində istifadəçilərin verdiyi sualların operativ şəkildə cavablandırılmasına görə dəfələrlə "Socially devoted" adına layiq görülüb. Onu da qeyd edək ki, Azercell ölkədə bu sertifikatı alan ilk mobil operatordur. Sertifikata layiq görülmək üçün səhifə istifadəçilərinin ildən-ilə artan müraciətlərinin cavablandırılma səviyyəsi ölçülür. Yüksək istifadəçi sayı ilə bərabər Azercell həmçinin, səhifədəki abunəçilərin fəallığı və aktiv istifadəsi baxımından da dəfələrlə ilk yerləri qazanıb. Bu yeniliklərin tətbiqində məqsəd abunəçilərlə daha sıx əlaqə qurmaq, onlara yeniliklər haqqında məlumatları çatdırmaq, abunəçilərin zamanına qənaət edərək onlara xidmət göstərməkdir.

Azercell-in Facebook-da rəsmi səhifəsi Azərbaycanda ən populyar səhifələrdən biridir və 9 ildir ki, fəaliyyət göstərir. Şirkətin rəsmi Facebook səhifəsində Azercell-in tətbiq etdiyi yeniliklər, tarif və kampaniyalar, keçirilən sosial layihələr və xidmətlər haqqında ən son xəbərləri almaq mümkündür.




## "Gənclər kitab oxuyur" layihəsinin təqdimatı keçirildi

Azercell Telekom MMC-nin mütaliə sevərlər üçün təqdim etdiyi "Gənclər kitab oxuyur" layihəsinin təqdimatı baş tutdu. Mayın 12-də Gənclik Mall TM-də yerləşən Starbucks kafesində keçirilən təqdimat mərasimində layihədə qiraətçi qismində iştirak edən 11 nəfər gənc tamaşaçılara təqdim olundu. Təqdimatda iştirak edən Azercell şirkətinin Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya lahiyənin məqsədi, gözləntiləri barədə öz fikirlərini bildirdi: "Əlinə kitab alıb otağın bir küncündə yerini rahatlayıb oxuyan insanların sayı get-gedə azalır. Yeni texnologiyalar, müasir cihazlar, ən əsası isə Internet həyatımıza elə sürətlə daxil olub təməl salır ki, köhnə faydalı vərdişlərə artıq vaxt qalmır. Odur ki, kitabı yaşatmaq üçün onu müasir həyata uyğunlaşdırmalıyıq. Bu layihədə məqsədimiz onlayn kitab oxumağı təbliğ etmək, mütaliə mədəniyyətinə yeni çalar qatmaq və gənc azərbaycanlı yazarlara özlərini tanıtmağa kömək etməkdir. Bununla yanaşı, oxu günlərində şəhərimizin sakinləri və qonaları xoş asudə vaxtı keçirmək, həm tanınmış, həm də gənc yazarlarla görüşmək imkanı qazanacaqlar".



### UNEC İslam Dünyası Universitetləri Federasiyası ilə əməkdaşlığı genişləndirir

IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Bakıda səfərdə olan İSESCO-nun baş direktoru və İslam Dünyası Universitetləri Federasiyasının (FUIW) baş katibi Əbdüləziz bin Osman əl-Tuveycri ilə UNEC rektoru, professor Ədalət Muradov arasında işçi görüş keçirilib.

Azərbaycanın sivilizasiyalararası və dinlərarası dialoqa, eləcə də müsəlman ölkələri arasında əlaqələrin inkişafına mühüm töhfə verdiyini qeyd edən qonaq, İSESCO nəzdində fəaliyyət göstərən FUIW-in islam dünyasını təmsil edən universitetlər arasında əməkdaşlıq üçün səmərəli platforma olduğunu diqqətə çatdırıb. 2017-ci ilin ölkəmizdə "İslam həmrəyliyi ili" elan edildiyini vurğulayan Ə.Muradov qonağa Azərbaycan ali təhsilində, o cümlədən UNEC-də həyata keçirilən islahatlar barədə məlumat verib. Ə.Muradov UNEC-in FUIW-in idarə heyətinə üzv seçilməsində göstərdiyi dəstəyə görə təşəkkür edib və bununla da UNEC-in FUIW-in fəaliyyətində daha aktiv iştirak etmək imkanı qazandığını bildirib.

### Əziz Əliyev – 120: "I Respublika elmi-praktik konfransı"

UNEC-də görkəmli dövlət və elm xadimi, əməkdar həkim, professor Əziz Əliyevin anadan olmasının 120 illiyinə həsr olunan "Respublikada qida və tekstil sənayesinin inkişaf perspektivləri" mövzusunda I Respublika elmi-praktik konfransı keçirilib.

UNEC-in Elm və innovasiyalar mərkəzinin direktoru, professor Sakit Yaqubov Prezident İlham Əliyevin "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında" sərəncamını alimin respublikada səhiyyə sisteminin inkişafı istiqamətindəki fəaliyyətinə verilən yüksək qiymət adlandırıb. Konfransın mövzusunun əhəmiyyətindən danışan S.Yaqubov ölkə prezidenti İlham Əliyevin qida və tekstil sənayesinin inkişafına xüsusi önəm verdiyini vurğulayıb. Konfrans işini plenar iclas və bölmələrdə davam etdirib.



# Kütləvi informasiya vasitələrinin əməkdaşlarına mənzillərin verilməsi qaydaları və şərtləri açıqlandı

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının tövsiyəsinə uyğun olaraq, "Kütləvi informasiya vasitələrinin əməkdaşlarına mənzillərin verilməsi qaydaları və şərtləri"nin müəyyənləşdirilməsi, eləcə də həmin qaydalar və şərtlər əsasında sənədlərin qəbulu prosesinin ədalətli və şəffaf şəkildə həyata keçirilməsi məqsədilə 9 nəfərdən ibarət komissiya yaradılıb.

Komissiyanın tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondundan 3 nəfər – Fondun icraçı direktoru Səfərli Vüqar Müzəffər oğlu (komissiyanın sədri), Fondun Müşahidə Şurasının üzvü Ələsgərli Müşfiq Məşi oğlu, Fondun aparıcı məsləhətçisi Mustafayev Samir Elman oğlu; Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasından 3 nəfər – şuranın sədri Məhərrəmli Nuşirəvan Umud oğlu, Şuranın Hüquq və beynəlxalq əlaqələr şöbəsinin müdiri Cavadov Nemət Rövşən oğlu, Şuranın Hüquq və beynəlxalq əlaqələr şöbəsinin məsləhətçisi Mehdiyeva Aygün Ərəstun qızı; Azərbaycan Mətbuat Şurasından 3 nəfər – şuranın sədri Amaşov Əflatun Əhməd oğlu, Şuranın İdarə Heyətinin üzvü və Fondun Müşahidə Şurasının sədr müavini Rəhimzadə Vüqar Gəncəli oğlu, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Quliyev Aydın Alqulu oğlu daxildirlər.




Komissiyanın 2017-ci il mayın 16-da keçirilmiş ilk iclasında "Kütləvi informasiya vasitələrinin əməkdaşlarına mənzillərin verilməsi qaydaları və şərtləri", eləcə də həmin qaydalar və şərtlər əsasında sənədlərin şəffaf şəkildə qəbulu qaydaları müəyyənləşdirilib. İclasdan sonra komissiya üzvlərinin iştirakı ilə Beynəlxalq Mətbuat Mərkəzində mətbuat konfransı keçirilib.

Tədbir iştirakçılarını salamlayan Fondun icraçı direktoru, komissiyanın sədri Vüqar Səfərli jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə son illərdə 2 yaşayış binasının tikilib istifadəyə verilməsini dünyada analoqu olmayan mütərəqqi təcrübə kimi dəyərləndirib. V.Səfərli qeyd edib ki, dövlətimizin başçısının 2013-cü il 22 iyul tarixli "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamına əsasən, Səbail rayonu ərazisində 17 mərtəbəli, 3 girişli, 255 mənzilli sayca ikinci yaşayış binasının tikintisi başa çatdırılıb. V.Səfərli daha sonra "Kütləvi informasiya vasitələrinin əməkdaşlarına mənzillərin verilməsi qaydaları və şərtləri" barədə ətraflı məlumat verib.

Komissiyanın üzvü, Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli jurnalistlərə mənzillərin verilməsi şərtlərinin müəyyənləşdirilməsi və sənəd qəbulu prosesinə başlanılması münasibətilə media nümayəndələrini təbrik edib.

Komissiyanın üzvü, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov jurnalistlər üçün mənzillərin tikilib istifadəyə verilməsini Azərbaycanda mediaya göstərilən yüksək diqqət və qayğının bariz göstəricisi kimi dəyərləndirib.

# Fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb

Mayın 11-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin birgə təşkil etdikləri "Keyfiyyət infrastrukturunun inkişafı rəqabətədavamlı ixrac məhsulları istehsalının vacib amilidir" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.



Tədbirdə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov, Fondun icraçı direktoru Vüqar Səfərli, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli Azərbaycanın bu günlərdə böyük bayram sevinci yaşadığını, ölkəmizin IV İslam Həmrəyliyi Oyunlarının rəsmi açılış mərasimi ərəfəsində olduğunu xatırladıb. Bu əlamətdar hadisə münasibətilə qonaqları və media təmsilçilərini təbrik edən icraçı direktor mötəbər idman tədbirinin yerli və beynəlxalq ictimaiyyətə dolğun şəkildə çatdırılması baxımından medianın da üzərinə mühüm vəzifələrin düşdüyünü vurğulayıb.

V.Səfərli bildirib ki, Fond fəaliyyət göstərdiyi 8 il müddətində fikir, söz və məlumat azadlıqlarının genişləndirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlığının artırılması, yaradıcı əməyinin stimullaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədinə xidmət edən çoxsaylı layihələr həyata keçirib. İcraçı direktor, həmçinin mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin Fondun fəaliyyətində başlıca istiqamətlərdən biri olduğunu qeyd edib. Vüqar Səfərli bu məqsədlə mütəmadi olaraq dövlət qurumları ilə birgə konfrans və müsabiqələrin təşkil olunduğunu vurğulayıb.

Son illər ölkədə qeyri-neft sektorunun və sahibkarlığın inkişafı məqsədilə ardıcıl islahatlar həyata keçirildiyini diqqətə çatdıran Vüqar Səfərli biznes mühitinin daha da yaxşılaşdırılması, rəqabətədavamlı məhsulların istehsalının və ixracının genişləndirilməsində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin də mühüm xidmətlərinin olduğunu vurğulayıb.

Vüqar Səfərli 2017-ci il yanvarın 26-dan aprelin 14-dək davam edən müsabiqəyə 31 kütləvi informasiya vasitəsindən 48 yazının təqdim edildiyini, yazıların 4 ekspert tərəfindən qiymətləndirildiyini diqqətə çatdırıb.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov komitənin fəaliyyəti haqqında geniş məlumat verərək Azərbaycanda keyfiyyət infrastrukturunun formalaşması və inkişafı istiqamətində ardıcıl islahatların aparıldığını bildirib. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Fərmanını xatırladan komitə sədri qeyd edib ki, həmin Fərmana əsasən keyfiyyət infrastrukturunun əsas istiqamətləri olan standartlaşdırma, metrologiya və akkreditasiya, o cümlədən patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmə təkmilləşdirilib, beynəlxalq tələblərə uyğun olaraq yeni publik hüquqi şəxslər təsis edilib. Avropalı ekspertlərlə birgə hazırlanmış "Texniki tənzimləmə haqqında" Qanun layihəsi üzərində işin yekunlaşdığını və aidiyyəti üzrə təqdim olunduğunu deyən Ramiz Həsənov qanunun qəbulundan sonra ölkədə istehsal olunan məhsulların təhlükəsizlik tələblərinin texniki reqlamentlərlə, keyfiyyət parametrlərinin isə standartlarla tənzimlənəcəyini deyib.

Müzakirələr zamanı çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli qlobal maliyyə böhranı şəraitində Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi və rəqabətədavamlı ixrac məhsulları istehsalı baxımından keyfiyyət infrastrukturu sahələrinin müstəsna rolunu qeyd ediblər. Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim edilib.

# REKLAM MƏTNLƏRİNİN TƏRTİB EDİLMƏSİ

**(əvvəli ötən sayımızda)**

Çox zaman əks-səda ifadəsinin aşağıdakı variantlarından istifadə olunur:
a) brendin adı;
b) brendin və sloqanın adı;
c) brendin adı və bu reklam üçün xüsusi olaraq yaradılmış ifadə.

Reklamın istiqamətindən asılı olaraq bu hərəkətlər həm aktiv, həm də passiv xarakter daşıya bilər.

Bu bölgü kifayət qədər şərtidir. Ayrı-ayrı reklam müraciətlərində bu və ya digər element olmaya bilər, adətən, qabaqcadan bildirilən reklam müraciəti məqsədli auditoriyanın diqqət və marağının cəlb edilməsinin əsas vasitələrindən biridir. Onun rolu qeyri-iradi diqqəti, rəngi və s. cəlb edən digər vasitələrin olmaması zamanı xüsusilə artır.

Bir tərəfdən reklamın, digər tərəfdən reklam mətninin məqsəd və vəzifələrini bir-birindən fərqləndirmək lazımdır. Bunların qarışdırılması yolverilməzdir.

Reklam mətni marketinq kanallarının yükü rolunda çıxış edərək, məhsul göndərənlə müştəri arasında ünsiyyətin informasiya funksiyasını yerinə yetirir.

Mətn informasiyası şəklində yaradılan reklam müraciətinin dörd məqsədi mövcuddur:

1.Attraksiya, yəni diqqətin cəlb edilməsi. Mətn özündə nəyisə ehtiva etməli və xüsusi tərtibata malik olmalıdır ki, bu da "alıcını" gözləri ilə ona ötəri baxmağa məcbur etməlidir.

2. Marağın oyanması. Mətnin leksik və semantik məzmunu "alıcının" sorğusuna cavab verməli, onun marağını stimullaşdırmalıdır, çünki yalnız bu zaman o, oxumaqda, xəbərin dərinliyinə varmaqda davam edəcək və alınmış informasiya ilə fikrən işləyəcəkdir.

3. Emosional təsir. Mətn "alıcıya" məmnunluq bəxş etməli və bir qədər xeyir, fayda gətirməlidir.

4. Xatırlama. Mətn "alıcının" yaddaşında müəyyən iz qoymalı və bununla əmtəələr aləmində onun yolgöstərəni olan kifayət qədər stabil nəticələrə malik olmalıdır.

Reklam mətninin tanınmış məqsədləri əsasında onun vəzifələrini müəyyən etmək lazımdır.

Beləliklə, reklam müraciətinin yuxarıda ifadə edilmiş vəzifələrinin həll edildiyi üç əsas istiqaməti ayırmaq olar:

a) məlumatlandırma - əmtəəyə olan ilkin tələb formalaşan zaman bu əmtəə haqqında istehlakçılara xəbər verilməsi;

b) əsaslandırma - əmtəənin yetkinlik dövründə irəli sürülən markanın üstünlüklərinin təsdiq olunması;

c) xatırlatma – edilən seçimin düzgünlüyünə istehlakçıları inandırmaq məqsədilə onların əlavə stimuliyasiyası.

Reklam mətnlərinin yaradılması zamanı çoxsaylı müxtəlif üslublara müraciət etmək lazımdır. Mətnlərin yazılmasına yanaşma orijinal, reklamın özü isə həqiqi olmalıdır. Qeyri-səmimi və şişirdilmiş, eləcə də stereotiplərə əsaslanan reklam heç vaxt satışa kömək etməyəcək və heç kimi cəlb etməyəcəkdir.

Reklamı cəlbedici və eyni zamanda, zövqlü etməkdən ötrü reklam mətnləri canlı və maraqlı yazılmalıdır.

Hər bir reklam materialının başlıca təyinatı insanlarda satılan əşyanı almaq arzusunu yaratmaqdan və onu satmaqdan ibarətdir. Reklam son nəticədə öz məqsədinə çatmalıdır.



Reklam mənbələrinin yazılması ilə məşğul olan insan məhsul və xidmətlərin doğru irəliləməsindən ötrü onlardan istifadə edilməsi sahəsində şəxsi təcrübəyə malik olmalıdır. O, məhsul və ya xidməti öyrənməli və elə reklam mətni tərtib etməyə qadir olmalıdır ki, onun fərqləndirici xüsusiyyətlərini inandırıcı şəkildə çatdırsın.

Reklam informasiya mətni deyil. O, ünsiyyətdir. Lakin bu ünsiyyət çox sürətlə baş verməlidir, çünki insanlar bu elana uzun müddət baxmayacaqdır. Reklamda qoyulan xəbərin çatdırılması üçün lazım olan vaxt saniyənin dörddə birinə yaxın olmalıdır. Əgər ünsiyyət saniyənin bu sayılan hissəsi ərzində baş verərsə, insan reklam vərəqini və ya bukletini tullamayacaqdır. Bu həmin reklam materialları üçün yoxlama olacaqdır. Anlamaq lazımdır ki, insanda reklam olunan əmtəəyə sifarişçi göndərmək və bu səbəbə görə ünsiyyətə girmək imkanı olmalıdır, əks halda bu əmtəəni heç kim almayacaqdır. Reklam materiallarında göstərilməlidir ki, hara getməli və ya hara yazmaq və zəng etmək olar, yaxud bu və ya digər halda kimlə əlaqə saxlamaq olar. Əvvəlcə siz potensial alıcıları maraqlandırırsınız. Sonra isə elə edirsiniz ki, onlar asanlıqla reaksiya versinlər.

Keyfiyyəti ilə fərqlənən jurnallarda yerləşdirilən reklamın bir hissəsi, ümumiyyətlə, reklam deyil. Bu, sadəcə hər hansı bir əmtəə haqqında bildirişdir. Orada satışın baş verməsi üçün məlumat yoxdur.

Reklam mətninin hər bir hissəsinin tərtib edilməsinə görə qayda və tövsiyələr mövcuddur ki, bunların bir çoxu təcrübədə tətbiq edilmir.

1. Beləliklə, sloqan aşağıdakıları etməlidir:
– reklam xəbərinin əsas ideyasını əks etdirməli;
- yüksək oxunaqlığa və xatırlatma funksiyasına malik olmalı;
- yığcam və qısa olmalı;
- dəqiq və ifadəli olmalı;
- nadir ticarət cümləsini ehtiva etməli;
- brendin adını daxil etməli (yaxşı olardı).

2. Sərlövhə: şübhəsiz, diqqəti cəlb etməkdən ötrü orijinal olmalı və istehlakçı üçün aktual olan informasiyanı əks etdirməlidir. Əgər reklam nadir ticarət cümləsinə əsaslanarsa, onu sərlövhəyə daxil etmək lazımdır və ya bu əsas reklam dəlili ola bilər. Başlıcası odur ki, sərlövhə məqsədli auditoriyanın nümayəndələrinin diqqətini cəlb edə və avtomatik olaraq onu tamaşaçıdan oxucuya çevirə bilsin.

**(davamı gələn sayımızda)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# "Şəmkir Aqropark"ı açılışa hazırlaşır



Ümumi sahəsi 604 hektar olan "Şəmkir Aqropark"ın qısa zamanda istifadəyə veriləcəyi gözlənilir.

Açılışına qısa müddət qalmış "Şəmkir Aqropark"da yaradılmış imkanlardan istifadə edilməsi ilə əlaqədar olaraq tədbir keçirilib. Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyəti başçısı aparatının əməkdaşları, "Şəmkir Aqropark"ın rəhbərliyi, aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərləri, icra nümayəndələri və bələdiyyə sədrləri iştirak edib.

Çıxış edənlər "Şəmkir Aqropark"ın yaradılmasının ixrac coğrafiyasının daha da genişləndirilməsinə və həcminin artırılmasına, milli brendlərin formalaşdırılmasına, intensiv metodların tətbiqinə, istehsalçı, emalçı və istehlakçı arasında münasibətlərinin genişləndirilməsinə, yüksək məhsuldarlığa nail olunmasına və yeni iş yerlərinin açılacağına səbəb olacağını bildiriblər. Bu yeni xidmət müəssisəsi regionda fermerlərin sahibkarlıq fəaliyyətini gücləndirməklə onlara məsləhət, texniki, aqroservis və logistika xidmətlərinin göstərilməsinə, dərman və gübrə ilə təmin olunmasına şərait yaradacaq.




Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150